# GÜRCÜSTAN

SAYI 13-14 (13.383)

CÜMƏ 21 FEVRAL 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"ს ა ქ ა რ თ ვ ე ლ ო"
"S A K A R T V E L O"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## M. KAVELAŞVİLİ: "ÜMİD EDİRİK Kİ, ABŞ ADMİNİSTRASİYASININ GÜRCÜSTANA QARŞI ƏDALƏTSİZ MÖVQEYİ DƏYİŞƏCƏK"



***"Ümid edirik ki, ABŞ administrasiyasının Gürcüstana qarşı ədalətsiz mövqeyi dəyişəcək və Donald Trampın gəlişi Avropa İttifaqı (Aİ) - Gürcüstan münasibətlərinə də təsir göstərəcək".*** Bunu ölkəmizin Prezidenti Mixeil Kavelaşvili Fransanın "Radio Courtoisie" radiosuna müsahibəsində bildirib. O qeyd edib ki, bəzi liberal liderlərin indi Trampın mövqeyinə uyğunlaşmağa çalışması gülüncdür: *"Biz kiçik ölkəyik və xatırlatmaq istəyirik ki, Gürcüstana qarşı bu təzyiqlər Ukraynada müharibə başlayandan sonra artdı. Gürcü xalqı müdrikliklə seçdiyimiz sülh yolunu dəstəklədi. Bu gün bizim mövqeyimiz aydındır: Ukraynadakı bu müharibə bitməlidir. Müharibə başlayanda biz dərhal bildirdik ki, bu, Ukrayna üçün dağıdıcı olacaq və dayandırılmalıdır. Bu gün Tramp da eyni şeyi deyir, lakin biz onun mövqeyini izləmədik – biz bunu müharibənin ilk günündən söyləyirdik".* M. Kavelaşvili əlavə edib ki, Gürcüstana sanksiyalara qoşulmaq, Ukraynaya könüllülər göndərmək və müharibəni dəstəkləmək təklifləri edilirdi: *"Halbuki biz nə NATO-nun, nə də Avropa İttifaqının üzvüyük. Ölkəmizin 20%-i işğal altındadır. Bizi nüvə gücü qarşısında tək qoyurdular, sadəcə vədlərlə - "Davam edin, biz sizə silah göndərəcəyik". Gənc avropapərəstlər bizi Rusiyaya qarşı müharibəyə çağırırdı. O zaman hökumət bu təzyiqə boyun əyməli idimi? Gürcü xalqı sülh yolunu qorumaq üçün bizə güclü dəstək verdi. Tarix bir gün qəbul edəcək ki, biz ölkəni xilas etdik. Biz xalqımıza həqiqəti deməliydik. Təəssüf edirəm ki, o vaxt prezident Salome Zurabişvili Moldova və Ukraynanın arxasında dayanmışdı",* - deyə prezident vurğulayıb.

## BU GÜN BEYNƏLXALQ ANA DİLİ GÜNÜDÜR




***Beynəlxalq Ana Dili Günü hər il 21 fevralda qeyd olunur.*** Bu gün, ana dilinin qorunması və dil müxtəlifliyinin təşviq olunması məqsədilə UNESCO tərəfindən 1999-cu ildə təsis edilib və 2000-ci ildən etibarən beynəlxalq səviyyədə qeyd olunur. 21 fevral tarixinin seçilməsi 1952-ci ildə Banqladeşdə (o zaman Şərqi Pakistan) baş verən hadisələrlə bağlıdır. O dövrdə Pakistan hökuməti yalnız urdu dilini rəsmi dil elan etmək istəyirdi, lakin benqal dilində danışan əhali buna etiraz etdi. 1952-ci ilin 21 fevralında Dəkkədə keçirilən nümayiş zamanı bir neçə tələbə polis tərəfindən öldürüldü. Bu hadisə benqal dilinin rəsmi dil kimi tanınması ilə nəticələndi və Banqladeşdə bu gün "Dil Şəhidləri Günü" kimi qeyd olunur. BMT Banqladeşdə (Şərqi Pakistanda) baş verən hadisələri nəzərə alaraq, 21 fevralı "Beynalxalq Ana Dili Günü" kimi təsis edib. Beynəlxalq Ana Dili günü dil müxtəlifliyinin və çoxdilliliyin qorunması üçün töhfə verir. Ana dillərinin assimilyasiyasının və yox olmasının qarşısını almağa çalışır. Dünyada mədəniyyətlərin və identikliyin qorunmasının vacibliyini vurğulayır.

UNESCO və BMT bu günü qeyd edərək, təhsildə ana dilinin əhəmiyyətli vacibliyini vurğulayır və dünyada dillərin öyrənilməsinə və qorunmasına dəstək verir.

Gürcüstanda dövlət dili gürcü dilidir. Lakin ölkədə müxtəlif etnik azlıqlar yaşayır və onların dillərinin qorunmasına böyük əhəmiyyət verilir. Gürcüstan qanunvericilik səviyyəsində milli azlıqların dil hüquqlarını təmin edib.

104 illik qəzetimiz Gürcüstanda ana dilimizin qorunması üçün mühüm rol oynayır. Dil hüquqları, təhsil, mədəniyyət və milli kimliyin qorunması mövzularında məqalələr dərc edərək, dilimizin yaşadılmasına və inkişafına töhfə verir.

Ana dilimizi qorumaq təkcə mətbuatın və ya dövlətin işi deyil, bu, həm də hər birimizin məsuliyyətidir.

***"Gürcüstan" qəzeti "Ana Dili Günü" münasibətilə bütün millətləri səmimi qəlbdən təbrik edir!***

## საერთაშორისო დედაენის დღე

საერთაშორისო დედაენის დღე ყოველ წელს 21 თებერვალს აღინიშნება. ეს დღე დედაენის დასაცავად და ენობრივი მრავალფეროვნების ხელშეწყობად იუნესკოს მხრიდან 1999 წელს დაწესდა და 2000 წლიდან საერთაშორისო დონეზე აღინიშნება.

21 თებერვლის თარიღის არჩევა 1952 წელს ბანგლადეშში (მაშინდელ აღმოსავლეთ პაკისტანში) მომხდარ ამბებთან არის დაკავშირებული. მაშინდელ პაკისტანის მთავრობას მხოლოდ ურდუს ოფიციალურ ენად გამოცხადება სურდა, მაგრამ ბენგალურად მოსაუბრე მოსახლეობა ამას შეეწინააღმდეგა. 1952 წლის 21 თებერვალს ქალაქ დაქაში ჩატარებული საპროტესტო აქციის დროს პოლიციამ რამდენიმე სტუდენტი მოკლა. აღნიშნული მოვლენის შედეგად ბენგალური აღიარებულიქნა ოფიციალურ ენად და ეს დღე ბანგლადეშში „ენისთვის წამებულთა დღედ" აღინიშნება.

გაერომ ბანგლადეშში (აღმოსავლეთ პაკისტანში) მომხდარი მოვლენების გათვალისწინებით, 21 თებერვალი „დედა ენის საერთაშორისო დღედ" დააწესა. ენობრივი მრავალფეროვნებისა და მულტილინგვიზმის შენარჩუნებას ხელს უწყობს. ცდილობს დედაენების ასიმილაცია და გაქრობა თავიდან აიცილოს.

იუნესკო და გაერო ამ დღის აღნიშნით, ხაზს უსვამს განათლებაში დედაენის როლს და მხარს უჭერს მსოფლიო ენების შესწავლასა და შენარჩუნებას. საქართველოში სახელმწიფო ენა ქართულია, თუმცა ქვეყანაში მრავალი ეთნიკური ჯგუფი ცხოვრობს და მათი ენების შენარჩუნება დიდი მნიშვნელობის მატარებელია. საქართველომ საკანონმდებლო დონეზე უზრუნველყო ეროვნული უმცირესობების ენობრივი უფლებები.

ჩვენი 104- წლიანი გაზეთი საქართველოში ჩვენი დედაენის შენარჩუნებისთვის მნიშვნელოვან როლს თამაშობს. ენობრივი უფლებების, განათლების, კულტურისა და ეროვნული იდენტობის დაცვის შესახებ სტატიების გამოქვეყნებით, ჩვენ ხელს ვუწყობთ ჩვენი ენის გადარჩენასა და განვითარებას.

ჩვენი დედაენის შენარჩუნება მხოლოდ პრესისა და სახელმწიფოს მოვალეობა არ არის, ეს ყოველი ჩვენგანის პასუხისმგებლობაა.

***გაზეთი „გურჯისტანი" ყველა ერს გულწრფელად „დედა ენის დღეს" ულოცავს!***

## XİN ABXAZİYADA KEÇİRİLƏN "PREZİDENT SEÇKİLƏRİ" İLƏ BAĞLI BƏYANAT YAYIB

***Xarici İşlər Nazirliyi (XİN) Abxaziyada keçirilən "prezident seçkiləri"ni Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə növbəti təcavüz cəhdi adlandırıb***. XİN bununla bağlı bəyanat yayıb. Bəyanatda qeyd olunub ki, "seçkilər" Abxaziyanın qanunsuz işğalı və faktiki ilhaqına doğru atılmış addımların qanuniləşdirilməsi üçün növbəti uğursuz cəhddir. Bildirilib ki, Abxaziya bölgəsində etnik soyqırımı nəticəsində yüz minlərlə insanın məcburi köçkün və qaçqın düşməsi fonunda qondarma seçkilər beynəlxalq hüququn fundamental norma və prinsiplərinə ziddir, onların heç bir hüquqi nəticəsi ola bilməz. XİN beynəlxalq ictimaiyyəti Gürcüstanın suverenliyi və ərazi bütövlüyünün pozulmasına yönəlmiş hərəkətləri düzgün qiymətləndirməyə və lazımi cavab verməyə, Rusiyanı Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü pozan hərəkətləri dayandırmağa çağırıb. Qeyd edək ki, separatçı Abxaziya bölgəsində "prezident seçkiləri" keçirilir. "Prezidentlik" uğrunda beş namizəd mübarizə aparır.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 39 FAİZ ARTIB



***Cari ilin yanvar ayında Gürcüstanın xarici ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 39,2 faiz artaraq 2 milyard dollardan çox olub.***

Bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb.

Hesabat dövründə Gürcüstanın xarici ticarətində idxalın həcmi 45,4 faiz artaraq 1,6 milyard dollar, ixracın həcmi isə 19,3 faiz artaraq 403,8 milyon dollar olub. Gürcüstanın xarici ticarətində 1,2 milyard dollar həcmində mənfi saldo yaranıb.

Qeyd edək ki, 2024-cü ildə Gürcüstanın xarici ticarəti 2023-cü il ilə müqayisədə 8 faiz artaraq 23,4 milyard dollar olmuşdu.

## NOVRUZ ÇƏRŞƏNBƏLƏRİNİN TARİXİ BƏLLİ OLDU




***Novruzun ilk çərşənbəsi fevral ayının 25-nə təsadüf edəcək.***

Belə ki, fevralın 25-də ilk - Su çərşənbəsi, martın 4-də Od, martın 11-də Yel, martın 18-də isə İlaxır çərşənbə - Torpaq çərşənbəsi qeyd olunacaq.

Qeyd edək ki, yaz fəslinin Gürcüstana daxil olması martın 20-si, Tbilisi vaxtı ilə saat 13:00-a təsadüf edəcək. Bu zaman gecə ilə gündüz bərabərləşir və Günəş düz şərqdə doğub, qərbdə batır. Günəş ekliptika üzrə hərəkət edərək, ekvatoru kəsib Cənub yarımkürəsindən Şimal yarımkürəsinə keçir. Həmin andan Şimal yarımkürəsində yaz, Cənub yarımkürəsində isə payız fəsli başlayır. Yaz fəslinin uzunluğu 92 gün 17 saat 40 dəqiqə 46 saniyə olacaq.

## O. ŞOLTS: "AVROPA UKRAYNANIN DEMİLİTARİZASİYASI İLƏ BAĞLI RAZILAŞMAYA ICAZƏ VERMƏYƏCƏK"

***Avropa heç kimə Ukraynanın demilitarizasiyası ilə bağlı razılığa gəlməyə imkan verməyəcək.***

Bu barədə seçki debatları zamanı Almaniya Kansleri Olaf Şolts Ukrayna münaqişəsinin həlli ilə bağlı danışıqlara Avropa İttifaqının cəlb edilməsinin vacibliyinə diqqət çəkərək bildirib.

Şolts Ukrayna ilə bağlı ABŞ-Rusiya müqaviləsinin bağlanması ehtimalına qarşı çıxaraq deyib: ***"Biz avropalılar buna imkan verməyəcəyik".***

Eyni zamanda, Almaniya Kansleri bir daha bəyan edib ki, Ukraynaya güclü ordu lazımdır.

## BAŞ NAZİR BATUMİDƏ BAŞ VERƏN FACİƏVİ HADİSƏ İLƏ BAĞLI BAŞSAĞLIĞI VERİB



**Gürcüstanın Baş naziri İrakli Kobaxidze Batumidə baş verən faciə ilə bağlı dərin kədərini ifadə edib.**

Baş nazir həlak olan uşaqların ailələrinə başsağlığı verib.

*"Batumidə baş verən faciəvi hadisə, iki azyaşlı uşağın həlak olması bizi dərin kədərləndirdi. Belə bir itkinin yaşandığı ailələr üçün təsəlli tapmaq çətindir. Gürcüstan hökuməti və şəxsən öz adımdan vəfat edən uşaqların ailələrinə, yaxınlarına və bu böyük faciəni yaşayan hər kəsə dərin hüznlə başsağlığı verirəm",* - deyə Baş nazir bildirib.

Qeyd edək ki, Batumi şəhərində baş verən bədbəxt hadisə nəticəsində üç və altı yaşlı iki uşaq həyatını itirib. İlkin məlumatlara görə, uşaqlar məcburi köçkün ailələrdən birinin qazdığı və su ilə dolu kanalizasiya çuxuruna düşüblər.

Hadisə ilə bağlı Gürcüstan Daxili İşlər Nazirliyi istintaq başladıb. Araşdırma Gürcüstan Cinayət Məcəlləsinin 116-cı maddəsi – ehtiyatsızlıqdan ölümə səbəb olma maddəsi ilə aparılır.

Hadisənin detalları araşdırılır.

## RƏSMİ BAKI GÜRCÜSTANIN ABXAZİYA BÖLGƏSİNDƏKİ QONDARMA SEÇKİLƏRİ TANIMADIĞINI AÇIQLAYIB



***Azərbaycan Gürcüstanın Abxaziya bölgəsində keçirilmiş qondarma prezident seçkilərini tanımır.*** Bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib. Bəyanatda deyilir: *"Azərbaycan Respublikası Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyir və 15 fevral 2025-ci il tarixində Gürcüstanın Abxaziya bölgəsində keçirilmiş qondarma "növbədənkənar prezident seçkisi"ni, həmçinin onun nəticələrini tanımır. Azərbaycan Abxaziya məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həllinin tərəfdarıdır".* Məlumat üçün bildirək ki, 15 fevral tarixində Gürcüstanın işğal olunmuş Abxaziya bölgəsində qondarma prezident seçkiləri keçirilib. İki həftə sonra isə seçkilərin ikinci turu keçiriləcək.

## GÜRCÜSTANIN CİNAYƏT MƏCƏLLƏSİNƏ "VƏTƏNƏ XƏYANƏT" MADDƏSİ ƏLAVƏ OLUNACAQ



**Gürcüstanda hakim "Gürcü Arzusu" partiyasının qərarına əsasən, Cinayət Məcəlləsinə "Vətənə xəyanət" maddəsi əlavə ediləcək.**

Bu barədə partiyanın icraçı katibi və parlament çoxluğunun lideri Mamuka Mdinaradze Parlament çoxluğunun iclasından sonra keçirdiyi brifinqdə məlumat verib.

*"Bugünkü iclasda çoxluq tərəfindən təsdiqlənmiş əsas qərarlardan biri budur. Qərarımıza əsasən, Gürcüstanın Cinayət Məcəlləsinə "Vətənə xəyanət" maddəsi əlavə ediləcək. Daha dəqiq desək, bu maddə bərpa olunacaq. Çünki vaxtilə "Vahid Milli Hərəkat" bunu qanunvericilikdən çıxarmışdı. Maraqlı məqam isə odur ki, bu addım 2008-ci il avqust müharibəsindən əvvəl, 2007-ci ilin aprel ayında atılmışdı",* – deyə Mdinaradze vurğulayıb.

Qeyd edək ki, yeni qanun layihəsinin konkret detallarını və hansı hallarda tətbiq olunacağını Gürcüstan parlamenti müzakirə edəcək.

## GÜRCÜSTAN BU İL ORTA DƏHLİZDƏ YÜKDAŞIMALARIN HƏCMİNİN ARTACAĞINI GÖZLƏYİR

2025-ci ilin sonuna qədər Gürcüstandan keçən Orta Dəhlizin ötürücülük qabiliyyəti 27 milyon tondan 48 milyon tona qədər artacaq. Bunu Gürcüstan iqtisadiyyat nazirinin müavini Quram Quraşvili bildirib. O bildirib ki, hazırda dəmir yolu xəttinin modernizasiyası layihəsi həyata keçirilir və bu proses ilin sonuna qədər başa çatacaq. Onun sözlərinə görə, 2025-ci ildə Orta Dəhliz üzrə yük dövriyyəsinin artması gözlənilir: "Gürcüstan yük dövriyyəsinin pik həddində çağırışlara hazır olacaq. Bunun şərti odur ki, 2022-ci ildə Azərbaycan, Qazaxıstan və Türkiyə ilə birgə yolların inkişafı üzrə beşillik plan imzalanıb. Burada illər üzrə problemlərin həlli üçün bütün layihə və tədbirlər qeyd olunub". Qeyd edək ki, Orta Dəhliz Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən keçərək Avropaya qədər uzanır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti dəhlizin bir hissəsidir.

## PUŞKİN BİRLƏŞDİRİR: TBİLİSİDƏ ƏN YAXŞI OXUCULAR MÜKAFATLANDIRILIB

***Gərgin siyasi vəziyyətə baxmayaraq, gürcü məktəbliləri və gəncləri böyük şairin şeirlərini rus dilində cəsarətlə söyləyib, öz çıxışlarını sosial şəbəkələrdə yerləşdiriblər.***

Tbilisidə ilk dəfə Aleksandr Puşkinə həsr olunmuş ***"Mən buradayam"*** adlı möhtəşəm beynəlxalq video - müsabiqə keçirilib. Təşkilatçı 8 ölkədən iştirakçıları toplaya bilmiş ***GeorgiaPress*** idi! Münsiflər heyəti sosial şəbəkələrdə yayımlanan, müsabiqə iştirakçılarının dahi rus şairinin şeirlərini söylədiyi videoları qiymətləndiriblər.

Mükafatlandırma mərasimi fevralın 10-da, Puşkinin anım günündə, Tbilisinin mərkəzində—Smirnov-Rosset Evində keçirildi. Bu yer şairin öz şeirlərini həsr etdiyi imperatriçanın rəfiqəsinin adı ilə bağlıdır. Yeri gəlmişkən, bina gürcü şairi Qalaktion Tabidzenin adını daşıyan küçədə yerləşir. Gürcüstanda onlar simvolizmi sevirlər və dərhal qeyd olunur ki, "bu gün müasir gəncləri iki klassik birləşdirib".

Qalibləri Puşkinin nəslindən olan, hazırda Rusiyada yaşayan baron ***Serj Qrevenitz*** təbrik edib. O, videomüraciət yazıb: ***"Əcdadıma olan marağınızı görmək mənim üçün böyük sevincdir. Çox sağ olun!"***

Mükafatlar əhəmiyyətli idi: planşetlər, telefonlar, kitablar və hətta pul mükafatları. Gürcüstanın ən kiçik rus məktəbinin—Marneulinin Opret ictimai məktəbinin uşaqları xüsusilə fərqləndilər. Onlara sertifikatlar və idman hədiyyələri təqdim olunub: futbol topu və köynəklər.

Qaliblər arasında Senakidən olan 14 yaşlı Nikita Siordia da olub. Onun anası Şorena təəssüratlarını bölüşüb: *"O, müsabiqəyə çox ciddi yanaşdı, yüz dəfə klip çəkdirdi! Biz Qərbi Gürcüstanda yaşayırıq və o, ilk dəfədir ki, belə bir tədbirdə iştirak etmək üçün Tbilisiyə gedib. Şadam ki, uşaq rus dilini öyrənir və Puşkinin əsərlərinə bu qədər həvəslidir".*



Mükafat alanlar arasında Marneulidən (Gürcüstan) Alina Abdulxalimova, Tacikistandan Payrav Rahimi və hətta Parisdən olan uşaq teatrı da var. Ən gənc iştirakçı 7 yaşındadır, ən yaşlısı—80 yaşlı Viktoriya Popova isə rus dilinin populyarlaşmasına verdiyi töhfəyə görə xüsusi mükafata layiq görülüb.

Müsabiqə göstərdi ki, Puşkin hələ də ruhlandırır və Gürcüstan müxtəlif xalqların mədəniyyətinin və adət-ənənələrinin qiymətləndirildiyi ölkə olaraq qalır.

**Mənbə:** KP. RU. 10.02.2025

## Sitat guşəsi



"Bizim diplomatik əlaqələrimiz yoxdur və Gürcüstanın ərazi bütövlüyü bərpa edilmədən olmayacaq. Lakin yenə də biz praqmatik siyasət yürüdürük. Praqmatizm olmadan Gürcüstan əlbəttə ki, sağ qala bilməz. Ölkəmizin ərazi bütövlüyü bərpa edilmədən Rusiya ilə diplomatik əlaqələr, əlbəttə ki, bərpa olunmayacaq".

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Xəzinədarlıq katibi Skott Besenti prezident Zelenski ilə görüşmək üçün Ukraynaya göndərirəm. Bu müharibə bitməlidir və tezliklə bitəcək. Çox sayda insan həlak olub, böyük dağıntılar baş verib. ABŞ milyardlarla dollar xərcləyib, lakin nəticələr azdır. Amerika güclü olanda, dünya daha sabit və dinc olur".

***Donald Tramp,***
***ABŞ-nin Prezidenti.***



"Biz gözləyirik ki, ABŞ-Azərbaycan münasibətlərində itirilmiş illər hesab etdiyimiz bu 4 il artıq tarixə qovuşacaq və biz yenidən başlayacağıq".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti.***



"Avropanın bəzi liderləri Ukraynadakı müharibənin davam etməsində maraqlıdır, lakin bunun üçün real məsuliyyət və risk götürməkdən çəkinirlər".

***Şalva Papuaşvili,***
***Gürcüstan Parlamentinin sədri.***



"Nə Tramp və Putin, nə mən və Putin, nə də Putinlə təkbətək görüşən hər hansı bir şəxs tərəfindən müharibənin həll edilməsi mümkün deyil. Biz həqiqi sülhə nail olmaq üçün birlikdə təzyiq göstərməliyik".

***Volodimer Zelenski,***
***Ukraynanın Prezidenti.***



"Hizbullah" tərksilah edilməlidir. İsrail isə Livan ordusunun bu işi görməsinə üstünlük verir. Ancaq heç kim şübhə etməməlidir ki, İsrail atəşkəsə əməl olunmasını təmin etmək və təhlükəsizliyini qorumaq üçün etməli olduğunu yerinə yetirəcək".

***Benyamin Netanyahu,***
***İsrailin baş naziri.***

## REGİON XƏBƏRLƏRİ

### Rustavi: İDMAN SARAYINDA GENİŞMİQYASLI KİBERFUTBOL TURNİRİ KEÇİRİLİB



***Rustavi meriyasının dəstəyi və Gürcüstan KiberFutbol Federasiyasının təşəbbüsü ilə Gürcüstan tarixində ən böyük kiberfutbol turniri - "Rustavi Cup 2025" keçirilib.***

Rustavi İdman Sarayında iki gün davam edən turnirdə 300-ə yaxın həvəskar idmançı iştirak edib. Turnirin ikinci mərhələsinə yüksələn 128 iştirakçı arasından qalib müəyyənləşib.

Qalib idmançıya "Rustavi Kuboku-2025" və pul mükafatı, turnirin bütün iştirakçılarına isə Rustavi meriyasının xüsusi hədiyyəsi təqdim edilib.

Turniri Rustavi meri Nino Latsabidze, parlamentarilər Aleksandre Dalakişvili və İrakli Şatakişvili də izləyiblər.

Rustavi ilə yanaşı, Gürcüstanın 7 müxtəlif şəhərində kiberfutbol turnirləri keçiriləcək və iyun ayında Mestiada başa çatacaq. Çempionatın mükafat fondu 100.000 laridir.

Layihənin məqsədi kiberfutbolu əlçatan etmək və regionlarda kiberidmanı inkişaf etdirməkdir.

Kiberidman dünyanın bir çox ölkəsində ənənəvi idman növü hesab olunur və Beynəlxalq Olimpiya Komitəsi onu gələcəkdə olimpiya idman növü kimi nəzərdən keçirir.

Kiberidman gənclərdə strateji, taktiki, rəqəmsal və texnoloji bacarıqların inkişafına kömək edir.

### Dmanisi: MER KOBA MURADAŞVİLİ 2024-cü İL ÜZRƏ İLLİK FƏALİYYƏT HESABATINI TƏQDİM EDİB

***Son illər Dmanisi Bələdiyyəsinin meri Koba Muradaşvili özünün illik fəaliyyət hesabatını təqdim etmə ənənəsinə sadiq qalaraq , 2024-ci il ərzində görülmüş işlərə dair geniş hesabatla, yerli əhalinin müxtəlif sosial təbəqələrinin nümayəndələri qarşısında çıxış etmişdir***



Mer son bir ildə həyata keçirilən layihə və proqram layihələr barədə geniş məlumat verdi. O qeyd etdi ki bələdiyyə büdcəsi 2023-cü illə müqayisədə 74 faiz artıb ki, bu da infrastruktur, sosial və iqtisadi inkişaf üçün daha çox imkanlar yaratmışdır. Bu da hesabat ilində Dmanisi şəhərində və bələdiyyənin kəndlərində çox mühüm işlərin görülməsinə və görülməsi zəruri olan bəzi layihələrin tamamlanmasına imkan yaratmışdır. Beləki, Dmanisi şəhərinin və əksər kəndlərin 24 saatlıq su təchizatı problemi öz həllini tapmışdır, bəzi kəndlərdə isə bu problem yaxın aylarda öz həllini tapacaqdır. Görülən bütün işlərimiz əhali ilə görüşlərdə razılaşdırılmış, onların istək və arzularına uyğun olaraq, onların həyat şəraitinin yaxşılaşdırılmasına və rifahını yüksəldilməsinə yönəlmişdir. Elə bələdiyyənin əksər kəndlərinin Dmanisi şəhəri ilə pulsuz nəqliyyat xətlərinin fəaliyyəti də bu qəbildəndir.

Dmanisinin meri Koba Muradaşvili bələdiyyənin ərazisində yerləşən məktəblərin təmir – bərpası, yeni məktəb binalarının və uşaq bağçalarının tikilməsi haqqında da tədbir iştirakçılarına geniş məlumat verdi.

Merin hesabatı çoxşaxəli və mühüm layihələrin həyata keçirilməsi barədə məlumatların əhalinin geniş təbəqəsinin nəzərinə çatdırmaq məqsədinə xidmət edirdi.

Koba Muradaşvili gələcək planlardan da danışıb, əhalinin suallarını cavablandırdı. Hesabatın təqdimatında Dmanisi, Bolnisi, Tetritskaro və Tsalka üzrə majoritar deputat David Şerazadişvili, Gürcüstan parlamentinin Təhsil, Elm və Gənclərlə İş üzrə komitəsinin sədri Qivi Mikanadze, din xadimləri, o cümlədən Bütün Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Faiq Nəbiyev, "Əmin" Xeyriyyə fondunun rəhbəri Mahir Məmmədov , Dmanisi bələdiyyə şurasının sədri Paata Kuliaşvili, bələdiyyə üzvləri, məktəb direktorları, yerli əhalinin nümayəndələri iştirak etdilər.

**İslam Məmmədov**

### Marneuli: ÜÇ KƏNDDƏ YENİ MİNİ STADİON TİKİLƏCƏK

***Marneuli bələdiyyəsinin Böyük Bəylər, Dəmyə və Qırıxlı kəndlərində yeni idman meydançalarının tikilməsi üçün tender elan edilib.*** Sözügedən layihələrin həyata keçirilməsi üçün hər bir kəndə 180.000 lari ayrılması nəzərdə tutulub. Tenderdə iştirak etmək istəyən şirkətlər fevralın 27-dən martın 4-dək təkliflərini təqdim edə bilərlər. Qalib şirkət, müqavilə imzalandığı gündən etibarən, 60 gün ərzində işləri meriyaya təhvil verməlidir. Qeyd olunur ki, sözügedən vəsait Marneuli meriyasının 2025-ci il büdcəsindən ayrılacaq.



### Telavi: İKALTO KƏNDİNDƏ TƏMİR - BƏRPA OLUNMUŞ KİTABXANA AÇILIB

Burada oxucular, məktəblilər, yerli sakinlər və kitabxanaya gələn digər qonaqlar yenilənmiş kitab kolleksiyası, texnologiya, pulsuz internet və müvafiq infrastrukturla qarşılaşacaqlar.

Telavi Bələdiyyəsinin Kitabxana Assosiasiyasının əsas istiqamətlərindən biri də kəndlərdə kitabxanaların və qiraətxanaların bərpasıdır.

Kitabxananın müasir infrastrukturla təchiz edilməsi gənc nəsillər arasında savadlılığın təbliğinə xidmət edir.

Yenilənmiş kitabxanada rahat iş yerləri də yaradılıb.

Telavi bələdiyyəsinin meri Levan Andriaşvili yerli hökumət nümayəndələri ilə birlikdə İkaltoda bərpa olunmuş kitabxananın açılışında iştirak edib, yenilənmiş məkanın açılışı münasibətilə toplaşan ictimaiyyət nümayəndələrini təbrik edib, kənd yerlərində kitabxananın olmasının vacibliyindən danışıb.

Telavi Bələdiyyəsinin Kitabxana birliyinin dəstəyi və təşkilatçılığı ilə kəndlərdəki kitabxanaların abadlaşdırılması prosesi ilboyu davam etdiriləcək.





## BEYNƏLXALQ HƏYAT

### DONALD TRAMP: RUSİYANIN G7-yə QAYITMASINI İSTƏYİRƏM



***ABŞ Prezidenti Donald Tramp, Rusiyanın "Böyük Yeddilik" (G7) qrupuna qaytarılmasının vacib olduğunu bildirib.***

O, hesab edir ki, Rusiyanın bu formata daxil edilməməsi səhv olub və Prezident Vladimir Putin geri qayıtmaqdan məmnun olardı.

*"Mən onların geri dönməsini istəyirəm. Düşünürəm ki, Rusiyanın qrupdan çıxarılması səhv idi. Burada əsas məsələ Rusiyanı bəyənib-bəyənməmək deyil. Mən inanıram ki, Putin geri qayıtmaqdan məmnun olardı. Ukraynanın NATO-ya üzvlüyü Rusiya üçün qəbuledilməzdir"*- deyə Tramp bildirib.

Tramp həmçinin Ukraynanın NATO-ya daxil olmaq istəyinin Rusiyanı narahat etdiyini və müharibənin əsas səbəblərindən birinin bu məsələ olduğunu bildirib.

*"Rusiyanın olduğu yerdə dayanıb Ukraynanın NATO-ya üzv olmasına icazə verməsini təsəvvür edə bilmirəm. Mən inanıram ki, müharibənin başlanmasının əsas səbəbi də bu idi. Çünki Bayden dedi ki, Ukrayna NATO-ya qoşula bilər və bunu söyləməməli idi."*- deyə Tramp əlavə edib.

### YER KÜRƏSİ BARƏDƏ BİLİNMƏYƏN HƏQİQƏT ÜZƏ ÇIXDI

***Lids Universitetindən olan tədqiqatçılar Yer kürəsinin qütblərində buz qatlarının yaranmasının çox nadir bir sıra amillərin birləşməsi nəticəsində baş verdiyini müəyyən etdilər.***

Tədqiqat "Science Advances" elmi jurnalında dərc olunub.

Komanda ilk dəfə olaraq bütün məlum buzlaşma proseslərini, o cümlədən vulkanların CO2 emissiyalarının azalmasını, meşələrin karbonu udmasını və dağ süxurları ilə reaksiyaları uzunmüddətli 3D Yer modelində birləşdiriblər.

Mütəxəssislər belə bir nəticəyə gəliblər ki, Yer kürəsi öz tarixinin böyük bir hissəsində buz papaqları olmadan "istixana" vəziyyətində olub və indi yaşadığımız şərait olduqca nadirdir.

Alimlər vurğulayır ki, Yer kürəsinin təbii iqlim mexanizmləri daha çox yüksək CO2 səviyyəsi olan istiliyə meyillidir. Bu, qlobal istiləşmənin başa düşülməsi üçün vacibdir.

### HƏMAS QƏZZA ZOLAĞINI FƏLƏSTİN MİLLİ ADMİNİSTRASİYASINA TƏHVİL VERMƏYƏ RAZILAŞIB



***HƏMAS hərəkatı Qəzza zolağının Fələstin Milli Administrasiyasına təhvil verməyə hazır olduqlarını bəyan edib.***

Bu barədə "Sky News Arabia" telekanalı mənbələrə istinadən məlumat yayıb.

Telekanal qeyd edir ki, HƏMAS Qahirədə danışıqlar zamanı Misirin təzyiqi ilə qəbul etdiyi qərarını Fələstin Azadlıq Təşkilatının rəhbərliyinə göndərdiyi məktubda açıqlayıb.

Eyni zamanda, HƏMAS-ın irəli sürdüyü tələblərə görə, onların hər hansı dövlət qulluqçusu yeni administrasiyada yer almalı və pensiya ödənişləri ilə təmin edilməlidir.

### TÜRKİYƏ DƏMƏŞQ HAVA LİMANINI BƏRPA EDİR

***Bu barədə ölkənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu deyib.*** O, bildirib ki, bunun üçün Suriyaya gedən 25 nəfərlik komanda artıq işlərə başlayıb. Nazirin sözlərinə görə, Türkiyədən Suriyaya müxtəlif texnoloji vasitələr, o cümlədən 10 X-ray cihazı, səkkiz əl detektoru da aparılıb. Bu, aeroportun təhlükəsizliyinin daha güclü təmin olunması üçündür.

A. Uraloğlu qeyd edib ki, Türkiyə Suriyanın hava nəqliyyatını gücləndirmək üçün işləri davam etdirəcək.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**GURTAGURT** *təql.* Ocaqda, sobada odun, kömür, qaz yanarkən çıxan səs. *Ocaq gurtagurt saldı.*

**GUŞ** *[ fars. ] klas.* Qulaq.

*Barmağında xatəm, guşində tənə;*
*Gireh-gireh zülfün tökə gərdənə.*
M. P. Vaqif

**Guş etmək** *klas.* – qulaq asmaq.

*Harun, guş et, bir dəm*
*Leylayə mən bəndəm.*
Ü. Hacıbəyov.

**GUŞƏBƏND** *is. [fars.] köhn.* Bir şeyin, ya tikilinin guşələrini birləşdirməkdən ötrü metal və ya başqa materialları birləşdirməkdən ötrü metal üçbucaq şəklində bənd; künyə.

**GUŞƏDAŞI** *is.* 1.Tikilərkən binanın tinlərinə qoyulan və başqa bütün daşların qoyulması üçün əsas olan daş. *Guşədaşı yerdə qalmaz.*
( Ata. sözü ).

2. *məc. kit.* Əsas, başlıca ideya, çıxış nöqtəsi.

**GUŞƏNİŞİN** *is. [ fars. ]* Cəmiyyətdən, adamlardan qaçan adam; asket, zahid.

**Guşənişin olmaq** – bir yerdə qapanıb qalmaq, evdən bayıra çıxmamaq.

[Şah:] *Mən ona Mazandaran hökumətini vermişəm, gedib əyləşib orada, olub guşənişin.*
Ə. Haqverdiyev.

**GÜC-BƏLA** *zərf.* Çox çətinliklə, böyük əziyyətlə; zorla.

*Güc-bəla onları gətirib yola,*
*Deyirəm:–Adıma vurmayın ləkə!*
S. Rüstəm.

**GÜCƏNMƏK** *f.* 1. Güc sərf etmək, güc vurmaq. *Stolu qaldırmaq üçün gücənmək.*

*…Deyib Hacı birdən bərk-bərk gücəndi,*
*Yumruğu Əjdərin ağzına endi.*
H. K. Sanılı.

2. *məc.* Cəhd etmək, çox çalışmaq. *Sərdar Rəşid bu son sözümün cavabını vermək üçün xeyli gücəndi.*
M. S. Ordubadi.

**GÜLAB** *is. [ fars. ]* Qızılgül yarpaqlarını distillə etmək yolu ilə alınan ətirli maye, gül suyu. *Gülab çəkmək. Üzünə gülab səpmək.*

*Ənbər etmiş torpağın adın, suyun ismin gülab.*
Füzuli.

*Xanım Şəmsiyyə gülab kimi ətir qoxuyurdu.*
M. İbrahimov.

**GÜLABDAN** *is. [fars.]* Gülab saxlamaq üçün aşağısı girdə, boğazı dar, uzun və qəşəng formalı çini, ya metaldan qab; gülabqabı, gülabsüzən.

*…Mərsiyəxan gülabdanı alıb ətirləndi.*
Çəmənzəminli.

*Dərhal xəlifə … mis satıllarda şərbət, əlində gülabdan camaat ilə bir yerdə küçəyə çıxardı.*
H. Sarabski.

*Birdən* [Mehribanın] *gözləri pəncərənin üstündəki gülabpuşa sataşdı.*
H. Seyidbəyli.

**GÜLBAZ** *is. [fars.]* Gül əkməyi, gül becərməyi, ümumiyyətlə, gülü çox sevən adam; çiçəkbaz.

**GÜLBƏDƏNLİ** *sif. və is.* Klassik Azərbaycan poeziyasında gözəlin epitetlərindən (sifətlərindən) biri.

*Neyləmişəm inciyibsən,*
*Yenə, ey gülbədən, məndən.*
Q. Zakir.

**GÜL-ÇİÇƏKLİ** *cəm, bot.* Ağac, kol, otşəkilli müxtəlif bitkilərin daxil olduğu fəsilənin adı. *Gül-çiçəklilər fəsiləsi.*

**GÜLÇÖHRƏ** *[fars.]* bax **gülüzlü.**

*Gülçöhrə sənəmlər oldular cəm,*
*Hər bir sənəmin əlində bir şəm.*
Füzuli.

**GÜLDAN** *is. [fars.]* 1. Dərilmiş gülü qoymaq üçün müxtəlif formalı qab; gülqabı. *Güldana su tökmək.*

[Vaqif] *qarşısındakı mina güldanın içindəki novruzgülü və bənövşələri götürüb qoxuladı.*
Çəmənzəminli.

2. Dibçək. *Güldanda gül əkmək.*

**GÜLƏBƏTİN** 1. *is.* Qızıl və ya gümüş tellərindən, habelə onlara bənzədilən materiallardan qatışığı olan sap.

[Otaqda] *arasıra məxmər, üstünə güləbətin çəkilmiş daraqqabı, saatqabı da nəzəri cəlb edərdi.*
H. Sarabski.

2. *sif.* Həmin sapla işlənmiş, üzərinə bəzək vurulmuş. *Güləbətin daraqqabı. Güləbətin araqçın.*

*Güləbətin köynək, abı nimtənə,*
*Yaxasında qızıl düymə gərəkdir.*
M. P. Vaqif.

3. *sif. məc.* Sarı, sarı-qızılı. *Güləbətin saç.*

**GÜLƏBRİŞİM** *is. bot.* Hündürlüyü bəzən 15-18 metrə çatan ağac.

**GÜLƏNDAMLI** bax **gülbədən(li).**

*Nə xoşdur baş qoymaq bir güləndamın qucağında,*
*Tamaşa eyləmək ol hələə zülfə ağ buxağında…*
M. P. Vaqif.

**GÜLƏYƏN** *is.* və *sif.* Çox gülən, gülməyi sevən (adam). Güləyən qadın.

*Çəpərdən üstümə qəfil su atan,*
*O güləyən qızı görəm yuxuda.*
M. Araz.

**GÜLGƏZ** *sif. məh.* Qırmızı, al.

*Ağ əllərin olub əcaib gülgəz,*
*Qana batıb, yoxsa hənalanıbdır?*
M. P. Vaqif.

*Şahnisə xanım göz yaşlarını gülgəz dəsmalla silərək … dedi.*
Çəmənzəminli.

**GÜLXƏTMİ** *is. bot.* Əməköməci fəsiləsindən ensizyarpaqlı, iri qəşəng çiçəkləri olan ot-bitki (xalq təbabətində işlədilir).

**GÜLPƏRƏST** *is.* və *sif. [fars.]* Gül becərməyi, gül yetişdirməyi, ümumiyyətlə gülü sevən (adam).

*…Kim Əlisa kimi faydalı, bağpərəst, bağçapərəst, gülpərəst bir adamın adını belə-belə ləkəli şeylərə çəkə bilər?*
S. Rəhimov.

**GÜLRƏNG** *sif. [fars.] klas.* Açıq-qırmızı rəngli, çəhrayı rəngi, gül rəngində olan.

*Dur, saqi, gətir badeyi-gülrəngi bu bəzmə,*
*Ver badeyi-gülrənglə bir rəng bu bəzmə.*
Raci.

**GÜLSABAH** *is. bot.* Səhər açılıb axşam vaxtı yumulan dekorativ gül. səhərgülü.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

### გაზაფხულის მაცნე (Qazapxulis matsne ) – Baharın xəbərçisi

**ნოვრუზი გაზაფხულის მოსვლის მაცნეა** (Novruzi qazapxulis mosvlis matsnea) – **Novruz baharın gəlişinin müjdəçisidir.**

**ეს დღესასწაული ხალხს უძველესი დროიდან აერთიანებს** (Es dğesastsauli xalxs udzvelesi droidan aertianebs) – **Bu bayram qədim zamanlardan bəri insanları bir araya gətirir.**

**ნოვრუზის მნიშვნელოვანი კომპონენტია ოთხი ჩარშამბა** (Novruzis mnişvnelovani komponentia otxi çarşamba) – **Novruzun vacib hissələrindən biriri də dörd çərşənbədir.**

**თითოეული ჩარშამბა დაკავშირებულია ბუნების ოთხ ელემენტთან** (Titeoeuli çarşamba dakavşirebulia bunebis otx elementtan) – **Hər çərşənbə təbiətin dörd ünsürü ilə bağlıdır.**

**ეს ელემენტებია წყალი, ცეცხლი, ქარი და მიწა** (Es elementebia tsğali, tsetsxli, kari da mitsa) – **Bu ünsürlər su, od, yel və torpaqdır.**

**პირველი ჩარშამბა წყლისაა** (Pirveli çarşamba tsğlisaa) – **Birinci çərşənbə su çərşənbəsidir.**

**ამ წელს წყლის ჩარშამბა თებერვლის 25-ს ემთხვევა** (Am tsels tsğlis çarşamba tebervlis 25-s emtxveva) – **Bu il Su çərşənbəsi fevral ayının 25-nə təsadüf edir.**

**წყლის ჩარშამბა სიცოცხლის და განახლების სიმბოლოა** (Tsğlis çarşamba sitsotsxlis da ganaxlebis simboloa) – **Su çərşənbəsi həyat və yenilənmə rəmzidir.**

**ადამიანებს სჯერათ, რომ წყალი ყველაფერს წმენდს** (Adamianebs sjerat, rom tsğali ğvelapers tsmends) – **İnsanlar inanırlar ki, su hər şeyi təmizləyir.**

**ამ დღეს დილით მდინარეზე ან წყაროზე მიდიან (**Am dğes dilit mdinareze an tsğaroze midian) – **Bu gün səhər tezdən çaya və ya bulağa gedirlər.**

**ისინი სახესა და ხელებს ცივი წყლით იბანენ (**İsini saxesa da xelebs tsivi tsğlit ibanen) – **Onlar üzlərini və əllərini soyuq su ilə yuyurlar.**

**დედები შვილებს თავზე წყალს ასხამენ, რათა ჯანმრთელები ყოფილიყვნენ** (Dedebi şvilebs tavze tsğals asxamen, rata janmrtelebi ğopiliğvnen) – **Analar uşaqların başına su tökürlər ki, sağlam olsunlar.**

**წყლის ჩარშამბას თბილი ოჯახური ვახშამით აღნიშნავენ** (Tsğlis çarşambas tbili ocaxuri vaxşamit ağnişnaven) – **Su çərşənbəsini mehriban ailəvi axşam süfrəsi ilə qeyd edirlər.**

**ამ დღეს ჩაის შაქარს უმატებენ, რათა ცხოვრება ტკბილი ყოფილიყო** (Am dğes çais şakars umateben, rata çxovreba tkbili ğopiliğo) – **Bu gün çaya şəkər əlavə edirdilər ki, həyatları şirin olsun.**

**წყალი სიცოცხლის საწყისია და მის გარეშე ადამიანი ვერ იცხოვრებს** (Tsğali sitsotsxlis satsğisia da mis qareşe adamiani ver itsxovrebs) – **Su həyatın başlanğıcıdır və onsuz insan yaşaya bilməz.**

**ამ ჩარშამბით ბუნება და ადამიანი განახლდება** (Am çarşambit buneba da adamiani ganaxldeba) – **Bu çərşənbə ilə təbiət və insan yenilənir.**

**გისურვებთ ლამაზ და სიხარულით სავსე გაზაფხულს! (Qisurvebt lamaz da sixarulit savse qazapxuls!) - Gözəl və sevinc dolu bir bahar arzu edirik!**




## "AŞIQ ZİYƏDDİN UCALIĞI"

Bu kitab araşdırmaçı şair, publisist Əflatun Hüseynoğlunun sayca 8-ci kitabıdır. Kitab müəllifin uzun illər yaxından dostluq elədiyi, Borçalının yaşlı nəsildən olan sonuncu ustad Aşığı, sazı - sözü ilə hər tərəfə ün salmış Aşıq Ziyəddin Keşəlinin həyat və yaradıcılığına həsr olunur. Həmçinin, müəlliflə uzun illərin yaxın dostluğu ilə əlaqəli görüşlərindən, dostluq və qardaşlıq zəminində deyişmələrindən, şeirləşmələrindən dəstanvari maraqlı söhbət açılır. Ümid edirik ki, bu kitab aşığı sevənlərin stolüstü kitabı olacaq, həm də onun əziz xatirəsini qəlblərdə həmişə yaşadacaq.

*Kitab 2025-ci ilin fevral ayında Rustavi şəhərinin "İRİDA" Nəşriyyatında çap olunub.*

**Redaktor:** Mahmud Kamaloğlu
**Kompüter yığıcısı və korrektoru:** Müəllif
**Məsləhətçi:** Əli Abbas
**Dizayner:** İrakli Kordzaxiya
**Kitabın sponsoru:** İbrahim Ziyəddin oğlu

Ustad aşığın son günlərində elimizin imamı, aşığın vəfalı dostu Molla Əflatun Hüseynoğlu 14 gün ərzində bir an da olsun onun yanından ayrılmadı. Son nəfəsinə kimi onun yanında oldu. Vida və dəfn mərasimi onun təşkilatçılığı ilə keçirildi. Həm də istedadlı şair olan Əflatun Hüseynoğlu öz dostuna sədaqət rəmzi olaraq gecəsini gündüzünə qatıb az zamanda aşıqla dostluq xatirələrini bu kitabda yazdı. Mən bir elm adamı olaraq yaxşı bilirəm ki, belə bir qısa vaxtda bu cür bir kitabı araya-ərsəyə gətirmək hansı zəhmətin bahasına başa gəlir. Bu kitabla müəllif xalqımızın gözəl sənətkarının xatirəsini əbədiləşdirdi, müəyyən dərəcədə ona ölməzlik qazandırdı. Bu iş həqiqi dostluğun, əsl insanpərvərliyin bariz nümunəsidir. Buna görə də mən Əflatun Hüseynoğluna bu fədakarlığına görə ürəkdən təşəkkür edirəm. İnanıram ki, bu kitab aşıqsevərlərin və həssas oxucuların stolüstü kitabı olacaq.

Mən kitab haqqında bilərəkdən söhbət açmadım. Bunun qiymətini dəyərli oxucuların özləri verəcəklər. Bu kitab Aşıq Ziyəddinin həyatı və yaradıcılığı haqqında ilk qaranquşdur. Yəqin ki, gələcəkdə aşığın fəaliyyəti və yaradıcılığı barədə kimlər məşğul olacaqsa, bu kitab da onlara bir ip ucu verəcəkdir. Çünki burada aşığın şeirlərindən verilmiş nümunələrdən bəziləri, onun kitablarının heç birində yoxdur. Onlar yalnız Əflatun Hüseynoğluna məlum idi. Həmin şeirləri Ə.Hüseynoğlu əvvəlki kitablarında deyişmə şəklində vermişdi. Sənətə qayğı, sənətkara hörmət belə olar. Bizə düşən də bu dostluğu alqışlamaqdır.

***Kitabın ön sözünü diqqətinizə təqdim edirik***

# XINDI MƏMMƏDİN "SONBEŞİYİ"

Borçalı aşıq məktəbi zaman-zaman Türk dünyasının ozan aşıq sənətinə bir çox korifey sənətkarlar bəxş etmişdir. Bu, ən çox da 19-cu yüzilliyin ikinci yarısı və 20-ci yüzillikdə baş vermişdir. O dönəmlərdə Tiflis Qafqazın mədəniyyət mərkəzi hesab olunurdu. Belə ki, həmin dönəmlərdə Borçalı aşıq məktəbinin şöhrəti qonşu ölkələrə, hətta Yaxın Şərq ölkələrinə qədər gedib çatmışdır. Bax, elə buna görə də sənətin geniş yayıldığı qonşu ölkələrdən də buraya aşıqlar gələrək Gürcüstandakı aşıqların sənətkarlığından bəhrələnmişlər.

Aşıq Məsim Bəyazidli, Qaraçöplü Aşıq Musa, Aşıq Sadıq. Quşçu İbrahim, Xındı Məmməd, Dədə Əmrah, Alxan Qarayazılı, Hüseyn Saraclı, Xan Kamandar, Astan Kosalı, Məhəmməd Sadaxlı, Əhməd Sadaxlı, Nurəddin Qasımlı və s. onlarca ünlü Borçalı ustad aşıqların səsi-sorağı bütün türk dünyasına yayılmışdır. Bu, korifey sənətkarların hər biri çox dəyərli şəyirdlər yetişdirmişlər ki, onların da əksəriyyəti Borçalının ünlü aşıqları oldular. Belə ünlü çıraqlardan biri də Aşıq Ziyyəddin Borçalı oldu.

Ziyəddin Məhəmməd oğlu Əliyev (Aşıq Ziyəddin, Aşıq Ziyəddin Borçalı, Aşıq Ziyəddin Keşəli kimi də tanındı) 1948-ci ildə (çox təəssüflər olsun ki, bütün sənədlərində səhv olaraq 1950 –ci il yazılıb və indi də onun haqqında yazılanların hamısında 1950 rəqəmi göstərilib) ulu Borçalının Dəmirçihasanlı mahalının Kürüstü Keşəli kəndində sadə bir kəndli ailəsində dünyaya göz açıb.

O, dünyaya gözünü açıb, özünü biləndən saza-sözə meyilli və bu sənətə çox maraq göstərən sadə bir ailədə böyüyüb. Doğrudur, atası Məhəmməd kişi nə aşıq deyildi, nə də bu sənədin bilicisi. Ziyəddin bir az böyüyəndən sonra atası ona hər axşam dastanlardan, aşıqlardan danışar, qoşmalar söyləyərdi. Bütün bunların hamısı Ziyəddinin beyninə möhkəm həkk olunurdu.

Ziyəddin 14-15 yaşlarına çatanda artıq aşıqlıq sənətinə həvəsinin ötəri olmadığını dərk etdi. Oğlunun bu həvəsi atasını da çox sevindirdi. Nəhayət, ailədə qərara alındı ki, Ziyəddini bir ustad aşığa çıraq versinlər.

Gözəl yaz günlərinin birində, Məhəmməd kişi kəndin hörmətli ağsaqqallarından bir nəfəri də özü ilə götürüb Keşəlidən çox da uzaq olmayan Qaş Muğanlı (Böyük Muğanlı) kəndinə adı dillər əzbəri olan Borçalı bülbülü Xındı Məmmədin (1896-1968) yanına gedir. Ustad müsafirləri çox mehribanlıqla qarşılayır, evə dəvət edir. Bir az söz - söhbətdən sonra qonaqların gəlişinin məramını öyrənir. Ustad balaca boylu, zəif cüssəli Ziyəddini təpədən dırnağa qədər bir də süzür və başlayır onu çək-çevir etməyə. İlk dəfə onun hansı aşıqları tanıdığını soruşur, saz havalarının adlarını xəbər alır. Sonda ona bir qoşmanı əzbər söyləməsini istəyir. Axırda da avazını yoxlayır. Sonra şəyird götürməyə razılıq verir — yəni təzə şəyird götürəcəyi Ziyəddin imtahandan uğurla çıxır. Axşam evə qayıdanda Ziyəddinin sevincdən gecə səhərə qədər gözünə yuxu getmir, aşıq olmaq xəyallarının gerçəkləşdiyinə hələ də inana bilmirdi.

Bəli, iki il yarımdan artıq bir zamanda Ziyəddin Məhəmməd oğlu ustadı Xındı Məmmədə cani-dildən qulluq edir, necə deyərlər, onun dizinin dibindən ayrılmır. İnsafən ustad, Ziyəddinlə tay-tuş olan oğlu Gülabıya da sənətin sirlərini öyrədir, bildiyi, tanıdığı ustad sənətkarların şeirlərini onlara yazdıraraq əzbərlətdirir. Dastanları onların beyinlərinə həkk elətdirir, əksər klassik saz havalarını qüsursuz çalmağı öyrədir.

Zaman keçdikcə ustad şagirdlərini - öz oğlu Gülabı və Ziyəddini də dəvət olunduğu toy-düyün məclislərinə və dövlət konsertlərinə də aparırdı ki, onlar xalq arasına çıxmağa, səhnə mədəniyyətinə alışsınlar.

1968-ci ilin əvvəllərində Xındı Məmmədin Marneuli rayonunun Alget üzümçülük sovxozunun (indiki Kürüstü Alget kəndi) klubunda keçirilən konserti zamanı şagirdi Ziyəddini də gətirmişdi. Aşıq Ziyəddin ilk dəfə səhnədə tamaşaçı qarşısına çıxdı. Bu onun xalq qarşısında Aşıq kimi ilk sınağı idi. O, bu imtahandan üzüağ çıxdı. Öz kəndlilərinin qarşısında konsertin sonunda tək bir hava ifa elədi, alqışlarla qarşılandı. (Talenin qismətindən bu sətirlərin müəllifinə də həmin konsertdə tamaşaçı kimi iştirak etmək qismət olmuşdu).

Sonralar da Aşıq Ziyəddin həmin həyəcanlı anları heç vaxt unutmur, çox gözəl xatırlayırdı.

Amma çox təəssüflər olsun ki, bu konsertdən sonra onun ustadı çox yaşamadı. Xındı Məmməd 1968-ci il avqustun 28-də dünyasını dəyişdi. Aşıq Ziyəddin Xındı Məmmədin "son beşiyi", sonuncu şəyirdi oldu.

Ustadı vəfat edəndən sonra Aşıq Ziyəddin Borçalının digər ünlü sənətkarları ilə əlaqə saxladı, onlarla tez-tez görüşərək məsləhətlər aldı, sənətdə bilmədiklərini onlardan öyrəndi. Davamlı olaraq qonşu Kəpənəkçi kəndinə, Xan Kamandarın yanına getdi. Aşıq Sayad ilə uzun zaman dostluq və yoldaşlıq etdi. Onlarla bərabər məclislər, toy - düyün şənlikləri apardı.

Aşıq Ziyəddin 1983-cü ildən 1989-cu ilədək Marneuli şəhərindəki mədəniyyət evində yeniyetmələrə saz dərsləri keçdi. O, eyni zamanda Borçalının bir çox ellərində toy-düyün məclislərində, el şənlikləri və bayramlarda, dövlətin mədəni - kütləvi tədbirlərində səhnə aldı, gözəl və bənzərsiz ifaları həmişə gurultulu alqışlarla qarşılandı.

Aşıq Ziyəddin, Borçalı Aşıq Ziyəddin, Aşıq Ziyəddin Keşəli kimi adlarla tanınan ustad eyni zamanda bədii yaradıcılıqla da məşğul olurdu. O, Aşıq şeir janrlarının bütün növlərində əsərlər yazıb. Yazdıqları mütəmadi olaraq dövrü mətbuatda işıq üzü görüb. Aşıq şairin "Ruhani ruha dərmandı" (2000), "Telli sazdı yarım mənim" (2005) və "Ustad nəfəsi" (2016) adlı kitabları Bakı şəhərində nəfis şəkildə çap olunub.

O dəfələrlə Azərbaycan və Gürcüstan televiziya və radiolarında öz gözəl ifaları ilə çıxış edib. Xeyli sayda mahnıları audio və videokasetlərə yazdırılaraq aşıqsevərlərə çatdırılıb.

Aşıq Ziyəddin eyni zamanda bir ustad aşıq kimi neçə-neçə gəncə sənətin sirlərini öyrədib. Onlardan Orxan İslamoğlu, Orxan Yırğançaylı, Tərxan Qaraoğlu, Tehran, Fazil, Mahir, Səhman və kimi digərlərini göstərmək olar.

Ustad Aşıq Ziyəddin Aşıq sənətinin kamil bilicisi kimi, tez-tez Azərbaycan, Türkiyə, Rusiya və s. ölkələrdə keçirilən folklor festivallarında, mədəni - kütləvi tədbirlərdə Borçalı Aşıq Məktəbini ləyaqətlə təmsil edib. 2004-cü ildə Türkiyənin Sivas vilayətində keçirilən Aşıq Veysəlin anım günündə uğurlu çıxışına görə qiymətli mükafata layiq görülüb.

Türk dünyasının böyük ozanı Aşıq Şenliklə bağlı 2018-ci ilin payızında Çıldır bələdiyyəsində çəkilən sənədli filmdə ünlü ustadın obrazını calandırmaq məhz Aşıq Ziyəddinə həvalə olunmuşdu. O, Gürcüstan Aşıqlarının ll və lll qurultaylarında iştirak etmiş və idarə heyətinin üzvü seçilmişdir.

Aşıq Ziyəddinin bu sənətdəki xidmətləri Gürcüstan dövləti tərəfindən layiqincə qiymətləndirilmişdir. Dəfələrlə fəxri fərman, diplomlarla mükafatlandırılan ustad Aşıq 2001-ci ildə Gürcüstan prezidentinin sərəncamı ilə ölkənin ali mükafatlarından olan "Şərəf" medalı ilə təltif edilib.

Aşıq Ziyyədin 17 yanvar 2025-ci ildə uzun sürən ağır xəstəlikdən sonra 77 yaşında dünyasını dəyişdi. Onun dəfn mərasimində təkcə eli-obası deyil, eyni zamanda Borçalının bir çox tanınmış simaları, dövlət rəsmilər, ziyalılar, sənət dostları, aşıqsevərlər və s. toplanmışdılar. Ustadla vida mərasimindəki matəmdə Aşıqla bağlı xatirələr söyləndi. Sonda iyirmidən çox Borçalı aşığı birlikdə ifa etdikləri "Mansırı" havası ilə onu son mənzilə yola saldılar. Allah rəhmət eləsin! Ruhu şad olsun!

## GETDİ

Uçdu aramızdan, görünməz oldu,
Şən bülbül avazlı bir ustad getdi.
Görmədi etibar heç zəmanədən,
Çəkdi bu dünyadan dad-bidad, getdi.

Eylədi yanıqlı ahı sinədən,
Bilmədim qəmini, yaranıb nədən?
Yoxsa azmı gördü dərsi Məmməddən,
O böyük ustadı qıldı yad, getdi.

Belədir fələyin insana qəsdi,
Dünya bir gün toydu, bir gün də yasdı,
Yüz də yaşasalar, deməzlər bəsdi,
Sanki üstümüzdən əsdi bad, getdi.

Dilimdə əzbərdi ustadın adı,
Görmədim kimsədə ondakı dadı,
Əflatunam, deyim təsəlli budu,
Qoydu bu dünyada yaxşı ad, getdi.

**Əflatun Hüseynoğlu**

* * *

## AŞIX!

***(Aşıx Ziyəddinə)***

Elin Keşəlidi, Kür qırağıdı,
Dünya təki el-obanda qal, aşıx!
Mərtlər oylağıdı, cənnət bağıdı,
Burdan gedir irizvana yol, aşıx!

Mən diyəjəm, sən də başda çalmağa,
Az qalıbdı yaşım səksən olmağa,
Bu dünyada yaşamağa, qalmağa,
Ulu Tanrı çəkməyifdi yol, aşıx!

Oynat barmaxları, şümşət əlləri,
Susmasın sazıyın incə telləri.
Ay Ziyəddin, gözdüyürəm yolları,
Faxralıyam, sən də yada sal, aşıx!

**Əli Faxralı (2000 – cü il)**

# MƏMMƏD ARAZ – BİZİ DASTAN ÇAĞINA APARAN ULU OZAN

***Xalq şairi Məmməd Araz Gürcüstanla sıx bağlı olub. Buraya müalicəyə də gəlib. Şeirlərini gürcü dilinə Zezva Medulaşvili, Avto Çxaidze və Aliko Qabelaia tərcümə ediblər. Şairin "Pitsunda dəftəri" silsiləsi çox məşhurdur.***

***M.Arazla bağlı bu yazını isə Şimali Kipr Türk Cümhuriyyətindən Nazim Muradov qardaşımız göndərib. "Gürcüstan" qəzetinin uzaq Kiprdə də oxunmağı bizə və "Gürcüstan"ımıza rəğbətdəndir.***

20 il əvvəl dünya ilə vidalaşan Məmməd Araz "yaxşı şair yoxdur, yaxşı şeir var" gerçəyini alt-üst edən ozanlardandır. Şübhəsiz ki, Məmməd Arazın da "üstünə qayıdan yazıları", bəyənilməyən şeirləri olmuşdur və bu gün də çap edilmiş kitabları arasında o şeirlərdən görmək mümkündür. Biz duyğularımızı ağlımızın önünə keçirməklə bizi sevənlərin əhval-ruhiyyəsində qısa zamanlı məmnuniyyətliklər yarada bilərik. Amma belə hərəkət etməklə uzun vədəli olaraq obyektivliyimizə kölgə düşürə biləcəyimizi də unutmamalıyıq…

Orta əsrlərin məşhur Ərəb sosioloq-filosofu İbn Haldunun maraqlı və məşhur bir fikri var; deyir ki, "ölkələrin qədərlərini onların coğrafiyaları müəyyənləşdirir"...

...Mən bu yazıda Məmməd Arazın 1970-1972-ci illərdə – hələ şöhrətinin zirvəsinə tam olaraq qalxmadığı dönəmdə – yazdığı sadəcə bir əsərindən – "Atamın kitabı" poemasından bir neçə xatırlatma və qarşılaşdırma ilə kifayətlənməyə çalışacağam.

*"Atamın kitabı"* – bir kənd adamının – el ağsaqqalı və şairin də atası İnfil kişinin uzun həyatının qısa hekayəsidir əslində. Üstəlik, bu kənd adamı kolxozçudur. Amma bu kolxozçunu Azərbaycan və ümumiyyətlə, Sovet ədəbiyyatının digər həmkar qəhrəmanlarından ayıran yönləri var ki, deyəsən onu bizə sevdirən də bu torpaq adamının aykırılıqlarıdır.

*"Atamın kitabı"*na oğuznamə dedik. Hamının bildiyi kimi, ən böyük oğuznaməmiz "Dədə Qorqud" kitabıdır. "Dədə Qorqud"da Qazan xanın dağ ilə danışması kimi, Atamın Kitabı da "iki etiraf"dan sonra dağ ilə üz-üzə" söhbətlə başlayır… "Mən uca dağlara babam demişəm" – dağı bir ağsaqqal kimi görmə yaklaşımı bəlkə Babadağdan da öncə dağa baxanda yaşmaq tutan Dədə Qorqud qəhrəmanları qız-gəlinlərimiz kimi oxucunun bilinc altına yerləşir. Ömrünün 37-38-ci baharını yaşayan bu orta yaşlı gəncin – Məmməd İnfil oğlunun – dağı ağsaqqal bir baba kimi görməsi, keçmiş qarşısındakı bu ədəb-ərkanı oxucunu ilk addımlarda sehrləyir. Bu ədəb-ərkan ona atalarından, babalarından keçmişdir ki, onlardan biri

*O dağ ətəyində*
*O çay yanında*

yaşayan bir qocadır. Əslində, "Atamın kitabı" da o qocanın hekayəsidir.

Zira, *"Atamın kitabı"* həm də bir "kolxozçu baba"nın hekayəsidir… Amma bu kolxozçu babanın... qanında

*Nə təltifə umu,*
*Nə paya tamah* var.

Demək ki, şair bizə bambaşqa bir "kolxozçu" qocanın hekayəsini anlatacaqdır…

Bu elə bir "kolxozçu" qocadır ki, onun axşamlar işdən evə qayıdarkən corablarından tökülən torpağı tutiya kimi gözlərinə çəkmək istəyirsən… Kollektivləşmə illərində (1933-də) dünyaya gələn Məmməd İnfiloğlu, "Atamın kitabı"nda xəyali və mübaliğəli, idealizə edilmiş bir qəhrəman yaratmayıb, gördüklərini diqqətli bir müşahidəçi kimi qələmə alıb. İnsanlar zamanlarının övladları olsalar (Məmməd Arazın doğulduğu Nursu kəndində dünyaya gələn yazıcı Əlabbas da "Köhnə kişi" ilə "Atamın kitabı"ndakı mötədil qəhrəmanın üsyankar və sərt variantını yaradıb). Bu "kolxozçu"nun:

*Ayaq pəncələri yatmır torpağa*
*Əyilib illərlə xış dabanında.*
*Yetmiş il, səksən il batıb torpağa*
*Sazaq – iliyində*
*Qış - dabanında…*

*"Atamın kitabı"*ndakı holavarlar bu əsərin Elat dilli cütçü (yarım köçəri) oğuznaməsidir və bizləri uzun əsrlərdən bəri uzaq düşdüyümüz dastan dönəminə aparır. Sonra gələn "Ağsaqqal" boyu isə mənəvi əcdadımız olan Dədə Qorqudun, təkcə yaşadığı yüzillərdə deyil, bugün də aramızda olduğunu (ola biləcəyini) göstərir.

"Kolxozçu" qocanın "traktorçu oğlanla söhbəti" quşaq (nəsil) çatışmasının, atalar və oğullar qarşıdurmasının poetik örnəyidir…

Oğuznaməsinin "Su ilə söhbət" boyunda yenə Dədə Qorqud Kitabı ilə kövrək səsləşmələr var. Dədə Qorqud'dakı "Qonaq gəlməyən evlər yıxılsa yey"in Məmməd Araz variantında İnfil kişinin ömür-gün yoldaşı (Cahan) Mahmudqızına qonşusu Məhəmmədin balalarının neçə gündür onlara gəlmədiyindən şikayət etdiyini görürük. Guya, ataərkil (erkək-patriarxat) ailə quruluşunun hakim olduğu bu oğuznamədə (Türk ailə yapısında anaərkilliyin hakim olduğu bilinməkdədir. Rəhmətlik prof. Süleyman Əliyarlının Dədə Qorquddakı anaərkil-matriarxat ailə yapısının izlərini incələyən



gözəl bir məqaləsi var. —N. M.) kişinin öz qadınına uyquladığı "şiddət"ə baxın:

*Bu qapıdan ayaq kəsən*
*hər nəvənin əvəzinə*
*- Qisasımı deyim sənə:*
*Hər ayağın əvəzinə*
*Bir pöhrəni kəsəcəyəm bu bağınnan*
*Bir kəlməni kəsəcəyəm dodağınnan*
*Bir bayatı kəsəcəyəm qulağınnan...*

Bu misralarda türklər arasında yayğın olan ağac kultunu və Dədə Qorqud oğuznaməsində sıxca rastlaşdığımız söz müqəddəsliyini açıqca görmək mümkündür…

Sonrakı bölüm İnfil Kişinin artıq həyatda olmayan ömür-gün yoldaşının qəbri önündəki hesabatıdır. Yüz yaşı tamam olan bu qoca kişi ədəb-ərkan sahibi olduğu üçün hələ də həyat yoldaşını adı ilə çağırmır. Mərhumə həyat yoldaşına muştuluq verir – ona, Bakıdan bir məktub gəldiyini və bir qız nəvələri olduğunu müjdələyir. Baybura qızı Banuçiçəyin dünyaya gəlməsi də təkcə ata-anasını deyil, bütün Oğuz elini sevindirmişdi. Dünyaya gələn bu qız isə Ozanın – Məmməd Arazın qızıdır – İradə xanımdır. "… Sənin kimi davakardı deyirlər" misrası isə həm yüz yaşlı Ağsaqqalın, həm də ozanın uzaqgörənliyini göstərir… Bizcə bu gün İnfil nəslində Banuçiçəklərin, Səlcanların olması da bir təsadüf deyildir…

*"Atamın kitabı"* oğuznaməsinin bu boyunda Türk ailəsinin müqəddəsliyini, qadınlarımızın fədakarlığını, "gəlinlərin kişiliyinin başladığı"nı görürük. Halbuki, orta əsrlərə aid başqa bir oğuznamədə

*"Öküz buynuzlu inək südsüz olar*
*İnək buynuzlu öküz gücsüz olar!"* sözləri

ilə qadınların qadın, kişilərin də kişi kimi olmaları gərəkdiğinin altı çizilmişdi. … "Atamın kitabı" oğuznaməsində "gəlinləri kişi edən" faktor İkinci Dünya Müharibəsidir. Burada savaşların, cəmiyyətin təməllərini laxlatdığı, sosioloji standartları alt-üst etdiyi, insan haqlarını ayaqlar altına aldığı… gerçəyi dilə gətirilmişdir.

"Kolxozçu" qoca mərhum həyat yoldaşından halallıq istəyərkən bilinc altında işıq kultunun da müqəddəs olduğuna işarət edir:

*Bu dünyanın işığını halal elə*
*Halal elə*
*Son ayaqda dönüb dağa baxa bilim*
*Bulaqların gözlərinə baxa bilim*
*Qayalardan baş daşılıq uma bilim*
*Gözlərimi gün doğana yuma bilim…*

Görüldüyü kimi, *"Atamın kitabı"* oğuznaməsinin bu misralarında işıq, su, torpaq kultları ilə "Türklər çadırlarının qapısını gündoğana qurardılar, ölülərini üzü gündoğana basırardılar" gerçəyi də dilə gətirilmişdir…

Atamın Kitabı oğuznaməsinin bir qəhrəmanı da şairin-ozanın özüdür. Oğuznamənin "Yeddi ildir anam köçüb bu dünyadan" misrası ilə başlayan "Bir xoş yuxu sorağında" boyunda (otuz ildən bəri həsrət qaldığım anamı on dörd ildən bəri itirdiyim üçün oğuznamənin bu boyu mənə ən doğma olan bölümüdür – N.M) möhtəşəm bir ANA obrazı var. Məmməd Arazın "Bacım Gülsümə Məktub", "Ana yaşı" və digər şeirlərini oxuyarkən ana itkisini iliklərinizə qədər hiss edirsiniz. Oğuznamənin bu boyu Türk ədəbiyyatında ana ölümü üzərinə yazılan ən ağrılı, ən səmimi və etkiləyici mənzumələrdəndir.

Məmməd Arazın məşhur bir şair olmasına baxmayaraq bir övlad kimi özünü mühakimə etməsini oğuznamənin "Atamın yüz yaşı" boyunda görürük. Dədə Qorqud"da "Qazan Xanın evinin yağmalanması" boyunda Qaraca Çobanın, evi yağmalanan Qazanı danlaması, Qazan Xanın özünün özünü sərt tənqidi ilə buradakı misralar səsləşir.

Ulu ozan Məmməd Araz oğuznamənin "Su üstündə bayatı" boyu ilə əlimizdən tutub bizi dastan çağına aparır.

*"Atamın kitabı"*nın "Camal kişi" bölümündə şəhər-kənd qarşılaşdırması, nəsillər çatışması, yeni sosioloji gerçəklər, moda tutqusu… dilə gətirilib.

"Kolxoz sədrinə gileydə isə

*Bu gün kərəntidən yapışmayanlar*
*Sabah tüfəngdən də yapışmayacaq*

həqiqətini görür və itirdiyimiz torpaqların bir səbəbinin də bu ola biləcəyini düşünürük…

*Oğullu-uşaqlı yetim ananın*
*Yoluq çəpərini kim toxuyacaq?"*

misralarında isə atılmışlığın, tərk edilmişliyin faciəsi ilə qarşılaşırıq.

Modern oğuznamənin "İntervü" boyunda gənc jurnalistlə söhbət edən "kolxozçu" qoca deyir:

*Qoy sənə də deyim, bala, bu dağ-dərə*
*Hay-haraydan uzaq olub min illərlə.*
*Elə bizim babalar da çox yaşayıb*
*Əzrayılla gizlənpaç da oynamışıq*
*Çay olanda yaz qudurub, sınıb körpü*
*Gələmməyib*
*Qışda yolu qar bağlayıb*
*Əzrayılın köpü sınıb*
*Gələmməyib*
*Qalıb bir yay, bir də payız –*
*Onda da ki, əldə yaba, oraq, dəryaz…*
*Yaxınlaşa bilməyibdi qorxusundan*
*Bax beləcə əzrayılın pusqusundan*
*Yayınmışıq…"*

*"Atamın kitabı"* oğuznaməsinin bu misralarındaki "kolxozçu" qocanı Dədə Qorqud oğuznaməsindəki cəsarətli, Əzrayıla belə meydan oxuyan Dəli Domrul kimi görürük…

"Dədə Qorqud"da hər boyun sonunda Dədə Qorqudun gəlib xeyir-dua verməsi ilə "Atamın kitabı"nın "Ucalıq haqqında nağıl (nəvə ilə söhbət)" boyu arasında da qəribə bir paralellik var. Didaktik üslub və ifadə tərzi hər iki oğuznamənin bənzər bölümlərində özünü göstərir.

...Ulu ozanımıza Tanrıdan rəhmət, onun Dədə Qorqud ilə eyni yerdə olmasını diləyirik!

**Nazim Muradov**

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

17 fevral 2025-ci il **"SAKARTVELOS RESPUBLİKA"**

### Levan Maçavariani: *"Dərin dövlət"ə qarşı mübarizə "Gürcü Arzusu" tərəfindən başladılıb"*

"2025-ci ildə dünya gündəmi formalaşır, ona görə də biz ehtiyatlı, praqmatik siyasətimizi davam etdirməliyik", - "Gürcü Arzusu"nun parlament fraksiyasının sədr müavini Levan Maçavariani "Günün Xronika"sına Gürcüstan və ABŞ münasibətləri ilə bağlı müsahibəsində belə deyib.

Levan Maçavarianinin qeyd etdiyinə görə, yeni Amerika administrasiyası Gürcüstan hökumətinin atdığı addımları yaxşı bilir.

"Vətəndaşlarımıza xatırlatmaq istərdim ki, müxalifətdə praktiki olaraq elə bir lider qalmayıb ki, cənab Trampı sərt sözlərlə təhqir etməsin və onu Rusiya agenti adlandırmasın. Amerika administrasiyası hər şeyi yaxşı bilir və "Gürcü Arzusu"nun tab gətirdiyi siyasətdən yaxşı xəbərdardır.

Paradoksal olsa da, "Gürcü Arzusu" "dərin dövlət"ə (Trampın hal-hazırda mübarizə apardığı) qarşı mübarizə başlayıb və artıq cəmiyyətimiz ölkədə sülhün qorunması üçün "Gürcü Arzusu"nun nələrdən keçdiyini yaxşı anlayır.

"İndi Trampın əsas söykənəcəyi ölkə Macarıstandır, siz çox yaxşı bilirsiniz ki, cənab Orbanla bizim dostluğumuz necədir və buna görə də, indiki Amerika administrasiyası Gürcüstandakı hakimiyyət və müxalifət haqqında nə bilməlidir, inanın ki, onlar tamamilə hər şeyi bilirlər"...

Business Press News

13 fevral 2025-ci il **"BİZNES PRESS NEWS"**

### *Hökumət bu il turizmdən 6,6 milyard dollara qədər gəlir gözləyir-strategiyada nə yazılıb?*

Milli Turizm Administrasiyası və İqtisadiyyat Nazirliyi "2025-ci il üçün Gürcüstanın Turizm Strategiyası"nı hazırlayıblar. Sənəddə sektorun bu il nail olacağı bir neçə əsas məqsəd müzakirə olunub.

Məsələn, 2025-ci ilə qədər turizm gəlirləri 6,6 milyard dollara, ziyarətçilərin sayı isə 11 milyona yüksəlməlidir. Turizmin ÜDM-də payının 7,9 faizə çatdırılması planlaşdırılıb.

Sənəddə bildirilir ki, Gürcüstan hər bir turistin xərclədiyi orta məbləği 600 dollara, səfərin orta müddətini isə 7 günə çatdırmağı hədəfləyir.

Sənəddə deyilir: "2015-ci illə müqayisədə sektor Qərbi Avropa, Asiya və Şimali Amerikanın yüksək ödəmə qabiliyyətinə malik bazarlarından gələn ziyarətçilərin sayını iki dəfə artırmağı hədəfləyir".

Bundan əlavə, turizm sektorunda məşğul olanların sayı onillik müddət ərzində (2015-ci il - 158 515 nəfər) 90 faiz artaraq 2025-ci ildə 301 284 nəfərə çatmalıdır. Bundan əlavə, sənəd on il ərzində investisiyaları 63 faiz artıraraq 1,17 milyard ABŞ dollarına çatdırmağı hədəfləyir.

12 fevral 2025-ci il **"REZONANS"**

### *"Qiorqi Mikautadze Fransanın Liqa 1-də ayın ən yaxşı qolunun müəllifidir"*

Azarkeşlər arasında keçirilən sorğuya əsasən, Qiorqi Mikautadze dekabr-yanvar aylarında Fransanın Liqa 1-də ən yaxşı qol vuran futbolçu adlandırılıb.

Sorğu Fransanın Liqa 1-in rəsmi saytında keçirilib ki, Lion şəhərinin "Olimpik"inin gürcü hücumçusu Moze Simon ("Nant"), Lukas Stasin ("Sent-Etyen"), Oqustin Boak ("Sent-Etyen") və Maqnes Aklyuç ("Monako") ilə yarışıb.

Mikautadze bu qolu Liqa 1-in 14-cü turunda "Anje" ilə görüşdə vurub. Dekabrın 8-də "Lion" səfərdə oynadı və Giorgi təsirli çıxış edərək qol vurub.

Xatırladaq ki, Zuriko Davitaşvili də Fransa çempionatında oktyabrın ən yaxşı qolunun müəllifi olub.

Вечерний Тбилиси

7-13 fevral 2025-ci il **"VEÇERNİY TBİLİSİ"**

### *Qəhrəmanlar Meydanında yenidənqurma işləri*

Tbilisi meriyası Gürcüstan paytaxtının ən çox hərəkət olan yol qovşaqlarından birində — Saburtalo rayonundakı Qəhrəmanlar meydanında təmirə başlayıb.

Layihə çərçivəsində yolun hərəkət hissəsi genişləndiriləcək, yeni yol işıqlandırma sistemi quraşdırılacaq, "təhlükəsizlik adaları", yeni işıqforlar, piyada keçidləri yaradılacaq.

Görüləcək işlərin təxmini dəyəri 2 milyon dollara yaxın məbləğ təşkil edir. Belə bir miqyaslı layihəni həyata keçirmək üçün hakimiyyət müxtəlif şirkətlərə, o cümlədən, "Lukoil," "Gulf" və "Wissol"a aid olan əraziləri satın almalı olub (həmin ərazilərdə yanacaqdoldurma məntəqələri yerləşir).

İşlər əsasən gecə vaxtı aparılır və plana əsasən iki aya qurtarmalıdır.

Bu, 52 və 40 mərtəbəli iki göydələnin gələcək tikintisi üçün layihənin təsdiqləndiyi ərazidir. Bu layihə paytaxtın ən böyük layihələrindən biridir.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# YÜKSƏK QAN TƏZYİQİNİ AZALDAN 6 QİDA MƏHSULU

## BADAM, BİBƏR, KOKOS SÜDÜ, ÇİY KAKAO, ZƏRDƏÇAL (KURKUMA), DARÇIN

*(Əvvəli ötən sayımızda)*

**Bibər növlərindən:**



**Xalapenyo bibəri**

Xalapenyo bibərinin vətəni Meksikadır. Sözügedən bibər çili bibərinin bir növüdür. Meksikadakı Xalapa şəhərinə görə belə adlanıb. Xalapenyo bibəri adətən 5-9 sm uzunluğunda, silindrik və hamar qabıqlı olur. Yetkinləşdikdə əvvəlcə yaşıl, sonra isə qırmızı rəng alır. Scoville acılıq miqyasında 2,500-8,000 vahid arasında dəyişir. Bu, onu digər acı bibərlər arasında orta səviyyə hesab olunur. Acılığın mənbəyi olan kapsaisin maddəsi ən çox toxumlarda və içindəki ağ liflərdə cəmlənib. Təzə xalapenyo bibəri şirin və meyvəli notlarla yanaşı, xoş bir acılığa da malikdir. Qırmızı rəng almış xalapenyo daha şirin və daha güclü dad verir.

Xalapenyo bibərinin 100 qramında **30 kilokalori** var.

Xalapenyo bibəri vitamin və minerallarla zəngindir. Tərkibində su, pəhriz lifi, kül, doymuş və doymamış yağ turşuları, beta-karotin var. Xalapenyo bibərinin tərkibində A, C, K vitaminləri və B qrupundan vitaminlər var.

Bibərin tərkibi onun insan orqanizmi üçün faydalarını müəyyən edir.

Xalapenyo bibəri ürək-damar xəstəliklərinin qarşısının alınmasında təsirli olur və qanda xolesterini aşağı salır. Maddələr mübadiləsinə və həzm sisteminə faydalı təsir göstərir (kalorizator). Əhvalınızı yüksəltmək üçün kiçik dozalarla istifadə tövsiyə olunur.

Xalapenyo bibəri görmə qabiliyyətini, dərinin və saçın vəziyyətini yaxşılaşdırır. Tərəvəz yuxusuzluğa və şəkər diabetinə kömək edir. Qan təzyiqini aşağı salır. Eləcə də, həzm və bağırsaq mikroflorasına müsbət təsir göstərir, ümumi gücləndirici təsirə malikdir və qan damarlarının divarlarını gücləndirməyə kömək edir.

***Xalapenyo bibərinin əks göstəriciləri***

Xalapenyo bibərinin faydalarından başqa zərərləri də var. Xalapenyo bibərinin tərkibində çoxlu qaba lif və efir yağları olduğu üçün bağırsaq, mədə, qaraciyər və böyrək xəstəlikləri zamanı ehtiyatla istehlak edilməlidir.

Kapsaisin mədə və bağırsaqların selikli qişasını qıcıqlandıra bilər. Bəzi insanlar yüngül qıcıqlanmaya dözə bilər, lakin həssas mədəsi olanlar üçün bu ishala səbəb ola bilər.

Bunlardan ən diqqətə layiq olanı 2008-ci ildə Xalapenyo və serrano bibəri də daxil olmaqla, xam qidalarla əlaqəli olan və 1500-dən çox salmonellyoz hadisəsi ilə nəticələnən Saint-Paul salmonellez epidemiyası olub.

Xüsusilə, araşdırmalar göstərir ki, böyük dozalarda kapsaisinoid istehlak etmək mədə yanması, reflüks, ürəkbulanma, ishal, qarın və sinə ağrısına səbəb ola bilər.

Həkimlər mədə-bağırsaq traktında, qaraciyərdə, böyrəklərdə və ya sidik kisəsində problemi olanlara bibərdən istifadə etməyi məsləhət görmürlər. Digər ədviyyatlı qidalara qarşı allergiyası olanlar və ya astması olanlar da bu tərəvəzdən uzaq durmalıdırlar.

On yaşından kiçik uşaqlara da Xalapenyo bibəri yemək tövsiyə edilmir.

Həssas dişlər, kariyes, diş əti və ya boğaz iltihabı varsa, yeməkdən dərhal sonra ağzınızı yaxalayın: bibər minaya zərər verə və selikli qişanı yandıra bilər.

Hamiləlik laktasiya (süd vəzlərində südün əmələ gəlməsi və ifraz olunması) dövründə isti ədviyyatlar, souslar və tərəvəzlərdən imtina etmək daha yaxşıdır

Dəri problemi olan insanlar pisləşən dermatit və səpgilərlə qarşılaşa bilərlər.

*(Davamı növbəti sayımızda)*

# İMAM MƏHDİNİN MÖVLUDU GÜNÜ QEYD OLUNUB

### MARNEULİ




***17 fevral tarixində Marneuli bələdiyyəsinin Daştəpə kəndindəki İmam Zaman adına məsciddə bəşəriyyətin xilaskarı olan on ikinci İmam Məhdinin (ə.f) Mövlud günü qeyd olunub.*** Məscidin idarəçisi Şakir Qəhrəmanovun təşkilatçılığı ilə baş tutan tədbir Qurani Kərimin tilavəti ilə açıq elan edilib. Tədbirdə Marneulidəki İmam Əli (ə) məscidinin baş axundu Hacı Hacıyev nitq söyləyib. Quran ustadı Rəşad Əliyev, yazıçı - publisist Əli Abbas və digər qonaqların da iştirak etdiyi məclis sonda bayram süfrəsi ilə yekunlaşıb.

### QARDABANİ

***Qardabani məscidinin mollası Anar Bayramov Qurani Kərimin tilavəti ilə tədbirin açılışını edib.*** Daha sonra Bütün Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Faiq Nəbiyev tədbir iştirakçılarını bayram münasibəti ilə təbrik edib, İmam Məhdinin (ə.f) həyatı haqqında söhbətlər aparıb.



Mədərsənin maddahı seyid Həsən İmam Məhdinin (ə.f) mövludu üçün xüsusi bir ilahi ifa edib.

Həmçinin mədərəsənin direktoru Niyazi Amirxanov və mədrəsə müəllimi Namiq Hüseynov da çıxış ediblər. Tədbirdə mədrəsə şagirdləri müxtəlif ilahilər ifa ediblər . Sonda isə ehsan süfrəsi açılıb.

BAHAR GƏLİR-YAZ GƏLİR

# SU ÇƏRŞƏNBƏSİ

## (BİRİNCİ ÇƏRŞƏNBƏ)

(Əvvəli səh. 1-də)

Novruzun ilk müjdəçisi – Su Çərşənbəsi qədimdən bəri xalqımızın böyük coşqu və sevgi ilə qeyd etdiyi Novruz bayramının dörd əsas çərşənbəsindən ilkidir. Fevralın sonuncu həftəsindən etibarən hər həftə bir çərşənbə qeyd olunur və bunlar Novruzun, yəni baharın gəlişini simvolizə edir. Gələn həftə fevralın 25 – də ilk çərşənbə – Su Çərşənbəsi olacaq.




Bu gün suyun durulması, təmizlənməsi və yenilənməsi ilə bağlı müxtəlif inanclar mövcuddur. İnanclara görə, bu gündən etibarən su oyanır, bulaqlar çağlayır, çaylar daşır, qar əriyir və torpağa yeni həyat gəlir. İnsanlar da suyun təravəti ilə yenilənir, saflaşır və ruhən təmizlənirlər. İnsanlar bu çərşənbədə bulaq və çay kənarına gedir, su ilə yuyunur, suyun həyat mənbəyi olduğuna inanaraq, onunla bərəkət və təmizlik rəmzi kimi davranırlar.

Su Çərşənbəsi təmizliyi, yenilənməni və həyatın başlanğıcını bildirir. El arasında belə bir deyim var: "Su gələn yerə bərəkət gələr." Bu, suyun bolluq və firavanlıq gətirdiyinə olan inamı göstərir.

Su Çərşənbəsi ilə bağlı xalq arasında müxtəlif adətlər və inanclar mövcuddur. İnsanlar səhər erkən bulaq və ya çay kənarına gedib əllərini və üzlərini yuyurlar. İnanclara görə, bu su insana təravət və sağlamlıq gətirir. Əgər kimsə Su Çərşənbəsində su ilə təmizlənərsə, bütün il boyu bəlalardan qorunar. Səhər tezdən içilən ilk su insanın ruhunu və bədənini gücləndirir. İnsanlar inanırlar ki, bu çərşənbədə suya pıçıldanan arzu çin olar. Bir nəfər arzusunu suya söyləyib onu axan çaya buraxarsa, həmin arzu həyata keçər. Bəzi insanlar bir kasaya su töküb arzularını bu suya danışır, sonra onu ağac altına və ya həyətə tökürlər. Evdəki su qabları dəyişdirilir və yeni su ilə doldurulur ki, ailəyə bolluq və xoşbəxtlik gətirsin. Axşam saatlarında ailə üzvləri bir süfrə ətrafına toplaşır, dualar edilir və bayrama hazırlıq başlanır.

İlk çərşənbə ilə birlikdə təbiət yavaş-yavaş canlanmağa başlayır, insanlar isə içindəki ümidləri yeniləyir, gələcəyə daha böyük inamla baxırlar. Gələn həftə Su Çərşənbəsini qeyd edərkən bu qədim ənənələri yaşatmaq, suyun müqəddəsliyini və onun həyatımızdakı önəmini bir daha xatırlamaq vacibdir. Çünki Novruz yalnız təbiətin deyil, həm də insanların daxili dünyasının yenilənməsi, təmizlənməsi və saflaşmasıdır.

**Su Çərşənbəniz mübarək!**

# XONÇALI NOVRUZ GƏLİR

Bu bayramda xalqın, elin ən gözəl həyat tərzi, adət-ənənələri cəmlənib; cavanların qapı pusması, bəxtini sınaması, iynələrin lal suya salınması, küsülülərin barışması, dünyasını dəyişənlərin yad olunması, duzlu kömbə hazırlanması, torpağın yetişdirdiyi nemətləri süfrəyə düzmək, tonqal qalamaq, lopa yandırmaq, yumurta boyamaq, təzə paltar geyinmək və s.



Novruzun qüdrəti ilə insanların ürəkləri təzələnir. Yeni arzular, ümidlər pərvazlanır.

Novruz ümidlər çələngidir.

Novruz gözəllik, saflıq, paklıq və dünyanın oyanması deməkdir.

Novruz ruzi, bolluq, bərəkət və bəxtəvərlik gətirən bayramdır.

Novruz bayramında əvvəlcə təbiət özünü əks etdirir.

Novruzun səməni işığında yaz gəlir. Novruz ona görə bayramların bayramıdır ki, insanları bir-birinə yaxınlaşdırır və doğmalaşdırır.

Novruz bayramında Ulu Tanrının təbiətdə yaratdığı hər şey oyanır, inkişaf etməyə başlayır.

Hər gələn yaz özü kimi gəlir qaranquşların qanadında, bənövşənin bükük boynunda, nərgizin ətrində, çeşmənin saflığında gəlir. Novruz əsrlərin dərinliklərindən gələn ən qədim bayramdır.

Bahar fəsli necə də səxavətli və qayğıkeşdir. Öz tükənməz sərvətini insanlara əvəzsiz bəxş edir.

Novruz günü xəstə yatanlara pay göndərirlər.
Novruz günü ev sahibi evdə olar.
Novruz günü qızlar qırmızı geyinərlər.
Novruz günü alver etməzlər.
Novruz axşamı qarğış etməzlər.

Novruz günü uşağı olmayan gəlinləri səməninin ətrafında dolandırar və deyərlər: "Qoy Novruz günündə niyyət edib deyək. Allah səni də səməni kimi göyərtsin. Gələn il, bu zaman körpə balanla hamımız əl tutub səməninin ətrafında fırlanarıq. Amin!!!

Novruz axşamı bacadan sallanan torbaya pay qoyarlar.

Novruz axşamı qapıya atılan papağı boş qaytarmazlar...

**Suddarxan Kazımov.**

# YASƏMƏN ƏTRİNDƏ YAŞAYAN

## (kiçik hekayə)

Mən uşaq olanda bir adam var idi. Qışda sobanın yanında oturar, gözündə eynək kitab oxuyardı. Mən də bala pişik kimi yanına qıvrılıb saatlarla onu izləyərdim. Bəzən nəhəng kitabxanasının önündə dayanar, kitablarına birbir baxardım. Danteni, Vergilini, Tolstoyu görərdim. Kitablar, səhifələr gözümdə meydan kimi böyüyərdi.

Yayda mənimçün əncir yığar, onun faydalarından danışardı. Ovcuna doldurduğu əncirləri mənə uzadar, bərk-bərk tapşırardı ki, qabığını soymayım.

Yazda qızılgül sarmaşığının önündə oturar, ətri duymadığımı soruşardı. Mən də ala-yarım duyduğum ətirdən böyük həvəslə bəhs edərdim. O isə təbəssümlə baxardı. Tənəklə yasəməni eyni vaxtda müjdələyərdi mənə. Yeganə adam idi ki, üzümü salxımda sevmədiyimi bilirdi. Hər səfərində dənələyib verərdi. Tənək vaxtı isə tapşırardı ki, dolma bişirsinlər, süfrədəki güldan üçün də yasəməni özü gətirərdi.

Payızda bağçadan xəzanı yığışdırmağa qoymazdı. Bilirdi ki, xəzan gölündə üzməyi sevirəm. Amma təkcə xəzanı yox, onu dinləməyi də sevdiyimi bilirdi. Kəbəcərin suyunun necə daddığını, Ağdamdan Yevlaxa gələn yolda nələr olduğunu, Qarabağda qışın necə keçdiyini danışardı. O saatlarla danışar, mən isə heç ölməyən həvəsimlə dinləyərdim.

İndi elə bilirəm ki, mən bir də Danteni görə bilməyəcəm, üzümü həmişə salxımda yeyəcəm, bir də yasəmənin ətrini duymayacam. Daha ağaclar da yarpaqlarını tökməz, xəzan gölü yaratmaz.

Bir adam var idi.

Və indi o adam yoxdur... Amma o hələ də kitab səhifələrinin arasından boylanır. Hələ də mənə əncir yığan bir kölgə var haradasa. Hələ də bir yerdə, yasəmən ətrində yaşayır.



Mən onu hər dəfə kitabı açanda, bir qış axşamı soba istiliyində, payızda xəzana ayaq basanda tapacam. O, yaddaşımın ən gözəl yerində heç vaxt solmayacaq yasəmən kimi qalacaq.

**Nuran Yaqub**

# ƏZİZ DOSTLAR!

İstədim bu gün sizlərə bir məktəbdən danışım. O məktəb ki, məzunlarını saysam, siyahı çox uzanar. Yox, bu gün çox danışmayacam, ətraflı reportaj qalsın hələ. Bu gün Qardabani bələdiyyəsinin, Qaracalar kəndindən yazmaq istədim. O kənddən ki, orada, haqqında dastan yazacağım ilk qadın deputatımız böyüyüb, elinə, obasına, millətinə gərəkli olub...

Qaracalar məktəbi ali təhsilli məzunlarının sayına görə böyük göstəricilərə malikdir. Məni duyğulandıran isə bu məktəbin özünəməxsus fəallıq nümunələridir. Məktəbdən Günay müəllimin poçtumuza yolladığı videoları böyük qürur hissi ilə izlədim. Sevincimi sizlərlə bölüşürəm.

Tarix müəllimi Natalia müəllim "Tarixi geyimlərimiz 1910-2010" adlandırdığı bir podium təşkil etdi. Şagirdlərini səfərbər etdi. Nənələrin, anaların sandığından saxlanclar yuyuldu, ütüləndi. Yaxın tariximiz öz geyimləri ilə məktəb səhnəsində canlandı. Bütün tarixsevərlər üçün olduqca maraqlı bir göstərici idi. Günlərlə danışıldı, paylaşıldı, sevildi.

Azərbaycan dili müəllimi Türkanə müəllim isə öz növbəsində "MİLLİ MƏTBƏXİMİZ QARACALARDA" dedi. Yox, demədi. XI sinif qızlarını yığdı başına, "Gəlin, evdarlığımızı müsabiqə kimi göstərək- dedi. -Qonaqlar dəvət edək, görək milli yeməklərimizi nə qədər yaxşı hazırlaya bilərik." Həmin günə şagirdlər anaların tövsiyəsiylə, nənələrin təcrübəsiylə, özlərinin müasir zövqüylə hazırlaşdılar. Dovğadan nuşaba (kampot), plovdan ləvəngiyə, qatlamadan fəsəliyə süfrə açdılar.

Şagirdlərin həyəcanı, anaların marağı dəvət alan münsiflərin qeydlərinə dikilmişdi. Necə maraqlı gün idi... Yaddan çıxmaz, unudulmaz...

Bütün fəallıqları maraqla izləyən məktəbin direktoru Sevinc Əliyeva gənc müəllimləri çağırıb bu dəfə ideyanı özü verdi: - "Eşidirəm, görürəm, bu şokolad trendi aləmi götürüb. Gəlsəz, təşkil edəsiz, bu dəfə o şokoladı təmizləyicilərə verəsiz, amma şagirdlər yox, müəllimlər..."

Bu xəbər sürətlə müəllimlərə yayıldı. Qərarlaşdılar ki, hər müəllim bir plitə şokolad və imkan daxilində də 5-10 lari pul qoyub büküm hazırlasınlar. İllərdir məktəbin səliqəsini, sahmanını halal zəhmətiylə saxlayan iki ananı məktəbin ziyalılarının könüllü gündəmi etdilər.



Bax beləcə, Qaracalar məktəbinin müəllimləri həyatımızın gündəminə çevrilmiş "Şokolad oyunu" ilə iki ailəni bayramqabağı belə təbrik edərək öz fərqliliklərini nümayiş etdirdilər. Bax, belə.

Sizə "hələlik" deyirəm, Qaracalar məktəbi, yenidən dönüş etmək üçün.

**Esmira Ələkbərli**

# MİNNƏTDARLIQ ETMƏK İNSANİ BORCUMUZDUR



Mən, **Sevda Xəlilova-Muzaşvili** Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edirəm.. 2021-cı ildən Bolnisi Bələdiyyəsinin Naxiduri (Arıxlı) ictimai məktəbində doğma dilimizi tədris edirəm. Məktəbimiz Azərbaycan və Gürcü bölmələrindən ibarətdir. Hər iki bölmənin şagirdləri azərbaycanlıdır. Məktəbə qədəm qoyduğum andan burada yeni metodikadan istifadə etmək və şagirdlərimə daha maraqlı və keyfiyyətli dərslər keçirmək istədim, halbuki münasib şəraiti olmadığı halda, bunu həyata keçirmək heç də asan deyildir. Yeni layihə həyata keçirmək -Azərbaycan dili və ədəbiyyatı kabinetini açmaq məqsədini qarşıma qoydum. Məktəbin direktoru Kaxaber Çubinidze ilə bunu müzakirə etdim və kabinet üçün otaq ayrıldı.

2022-ci ildə Azərbaycan Respublikasının Gürcüstandakı Fövqəladə və Səlahiyyətli səfiri Faiq Quliyevə müraciət etdim. Onunla görüşdüm və öz fikirlərimi və istəklərimi bildirdim. Səfirimizə bu fikir çox xoş gəldi və dəstək olacağını bildirdi. Faiq müəllim bu işi həll etmək üçün səfirliyin I katibi olan Anar Rəsulova mənə hərtərəfli kömək etməsini tapşırdı. O gündən Anar müəllim, sağ olsun, mənimlə əlaqə saxlayaraq hər cəhətdən köməyini əsirgəmədi. Anar Rəsulovun iş müddəti bitdiyi üçün Bakıya qayıdası oldu və səfirliyin II katibi Ramiz Hacızadə bu öhdəliyi öz üzərinə götürdü. Bir müddət sonra işlədiyim məktəbdə müəllimlərlə bu haqda danışdım. Onlar da çox sevindilər və imza toplayaraq mənə dəstək oldular. 8 iyun 2023-cü il tarixində məktəbin adından müəllimlərin imzaları ilə səfirliyə rəsmi şəkildə müraciət etdik. Bu işi davam etmək üçün səfirliyin III katibi Cavid Məhərrəmovla əlaqə saxladım. Cavid müəllim mənə dəstək oldu. Cavid müəllim məsuliyyətli iş adamıdır. Çox qısa bir müddətdə hər şeyi həll edib istədiyimiz nəticəni əldə etmək üçün dayanmadan çalışdıq. Kabinet üçün lazım olan avadanlıqların və əşyaların siyahısını yazılı şəkildə təqdim etdim. Bütün xərclər səfirlik tərəfindən maliyyələşdirildi. Beləliklə, kabinet üçün lazım olan istədiyim avadanlıqlar əldə edildi. 2024-cü ilin dekabrnda, nəhayət, kabinet təntənəli surətdə açıldı. Şagirdlərimiz bu tədbirə böyük sevinc və həvəslə hazırlaşmışdılar. Tədbirdə Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin Müşaviri Kamal Xəlilov, səfirliyin III katibi Cavid Məhərrəmov, XI çağırış Gürcüstan parlamentin üzvü David Şerazadişvili, Bolnisi rayonunun tədris resurs mərkəzinin direktoru İamze Svanidze, məktəbimizin müəllimləri, sevimli şagirdlərimiz iştirak və çıxış etdilər .

Öz adımdan və Naxiduri (Arıxlı) ictimai məktəbinin bütün kollektivi adından Azərbaycan Səfirliyinə dərin minnətdarlığımı və təşəkkürümü bildirmək istəyirəm.

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ




**21 fevral**

•1440—Tevton təriqətinə qarşı Polşa krallığı ilə ittifaqda Prussiyadakı (indiki Rusiya Federasiyasının Kalininqrad vilayəti) alman şəhərlər Prussiya Konfederasiyasını yaradıblar.
•1857—Avksenti Tsaqareli, gürcü dramaturq və aktyor anadan olub.
•1916—Birinci Dünya Müharibəsi – Fransada alman və birləşmiş inglis-fransız orduları arasında Birinci Dünya müharibəsinin ən gərgin və qanlı döyüşlərindən olan Verden döyüşü başlayıb.
•1921—Gürcüstan Demokratik Respublikasının Təsis Məclisi ölkənin ilk konstitusiyasını təsdiq edib. 4 gün sonra, 25 fevralda Sovet Qızıl ordusu ölkənin paytaxtını işğal edərək, Gürcüstanın müstəqilliyinə son qoyub.
•1999—UNESCO tərəfindən Beynəlxalq Ana dili günü elan edilib.

**22 fevral**

•1632—Qalileo Qaliley Avropa astronomiyasının gələcək inkişafına təsir edən ən mühüm əsəri olan "İki əsas dünya sistemi, Ptolemey və Kopernik haqqında dialoq"u nəşr etdirib.
•1828— Rusiya imperiyası ilə Qacar İranı arasında Türkmənçay müqaviləsi bağlanıb. Həmin müqaviləyə əsasında, Araz çayının şimalında yerləşən Azərbaycan xanlıqları Rusiya tərəfindən ilhaq edilib.
•1847—Meksika-Amerika Müharibəsi: Buena Vista döyüşündə 5000 Amerika əsgəri 15000 Meksika əsgərini məğlub edib.
•1855—Pensilvaniya Dövlət Universiteti qurulub.
•1943—Nasist rejimə qarşı qansız mübarizə aparan Münxen universitet tələbələrinin qurduğu "Ağ Qızılgül" təşkilatı dağıdılıb, üzvləri isə həbs edildikdən sonra asılaraq edam edilib.
•1948—Çexoslovakiyada ölkənin kommunist partiyasının rəhbərliyi ilə inqilab başlayıb.

**23 fevral**

•1455 — Qərbdə ilk daşınan tipli və çap edilmiş kitabı "Qutenberq bibliyası" nəşr olunub.
•1874—İnglis mayor Valter Uinfild günümüzdə tennis adlanan oyunu patentləşdirib.
•1895—Vladimir Erkomaişvili, gürcü müğənni, anadan olub.
•1903—Kuba Quantanamonu qeyri-müəyyən müddətə ABŞ-a verib.
•1911—**Şəmsi Bədəlbəyli, Azərbaycan aktyoru anadan olub.**
•1917—Rusiyada çarlıq rejiminin sonunu gətirən Fevral inqilabı Petroqrad şəhərində nümayişlərlə başlayıb.
•1919—Benito Mussolini İtaliya Faşist Partiyasını qurub.
•1935—Rostom Abaşidze, gürcü idmançı, anadan olub.
•Belarus — Vətən Müdafiəçisi və Silahlı Qüvvələr Günü

**24 fevral**

•1466—İlk məlum lotereya Belçikada rəssam Jan van Eykin dul arvadı tərəfindən təşkil edilib.
•1582—Papa XIII Qriqori Qriqorian təqvimini elan edib.
•1739 —Karnal döyüşündə Əfşarlar dövlətinin rəhbəri Nadir şah Əfşar Böyük Moğol İmperiyasının padşahı Məhəmməd Şahı məğlub edib. Nəticədə iranlılar Delhi şəhərini ələ keçirib.
•1874—Anna Tulaşvili, Gürcü Piano Məktəbinin yaradıcılarından biri, anadan olub.
•1942—Amerikanın Səsi radiostansiyası ilk dəfə efirə çıxıb.

**25 fevral**

•1918 — Almaniya qüvvələri Estoniyanın işğalını demək olar ki, başa çatdırmaq üçün Tallini zəbt edib.
•1927—**Elquca Berdzenişvili, gürcü rəssam və qrafikaçı, anadan olub.**
•2012—Gürcüstanda "Lazik" zirehli döyüş maşınının təqdimatı keçirilib.
•**Küveyt — Milli Gün**

**26 fevral**

•1513—Zəlzələ Portuqaliyanın paytaxtı Lissabonu dağıdıb.
•1832— Polşa Rusiya İmperiyasının bir hissəsi olub.
•1935—Robert Watson-Watt ilk dəfə radarı nümayiş etdirib.
•1936— İlk "Volkswagen" istehsal edilib.

**27 fevral**

•1831—Nikolay Ge, Rus boyakar, anadan olub.
•1861—Varşavada Rusiya hakimiyyətinə qarşı etirazlar başlayıb. Rus əsgərləri beş protestantı öldürüblər.
•1936—İvan Pavlov, Rus fizioloq, vəfat edib.
•2000—Kanada milli futbol komandası KONKAKAF Qızıl Kubokunu qazanıb.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## ŞƏMSİ BƏDƏLBƏYLİ



***Azərbaycan teatr və kino rejissoru, aktyor, pedaqoq və ictimai xadimdir. O, Azərbaycan mədəniyyətində görkəmli yer tutan sənətkarlardandır və milli teatr sənətinin inkişafında böyük rol oynamışdır.***

Şəmsi Əsədulla oğlu Bədəlbəyli 23 fevral 1911-ci ildə Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində anadan olub. Erkən yaşlarından incəsənətə maraq göstərib. Orta məktəbi bitirdikdən sonra Ş. Bədəlbəyli Azərbaycan Pedaqoji Texnikumuna daxil olur. 1927-ci ildə Azərbaycan Pedaqoji Texnikumunun məzunu olur.

1927–1932-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında təhsil alır: iki il xalq çalğı alətləri şöbəsində, daha sonra kompozisiya nəzəriyyəsi sinfində Üzeyir Hacıbəylinin tələbəsi olur.

İlk təhsilini Bakıdakı məktəblərdə aldıqdan sonra Moskva Dövlət Teatr Sənəti İnstitutunda (indiki QİTİS) rejissorluq ixtisası üzrə təhsil alıb. 1936-cı ildə Bakıya qayıtdıqdan sonra Azərbaycan Dövlət Dram Teatrında rejissor kimi fəaliyyətini davam etdirir. Bir sıra səhnə əsərlərinin tamaşalarına quruluş verir. Onlardan C. Cabbarlının "1905-ci ildə", "Od gəlini" əsərlərinin tamaşalarının hazırlanmasında Ş. Bədəlbəyli rejissor assistenti kimi iştirak edir. Xüsusilə onun M. F. Axundovun "Müsyo Jordan və dərviş Məstəli şah" komediyasının səhnələşdirilməsi üzrə (rejissor M. Zeynalovla birgə) yaradıcılıq işi klassik komediyanın müasir təfsiri kimi qeyd olunur.

Şəmsi Bədəlbəyli Azərbaycanda teatr sənətinin inkişafında mühüm rol oynayıb. Şəmsi Bədəlbəyli Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında uzun illər rejissor və baş rejissor kimi çalışıb.

Şəmsi Bədəlbəyli həm də kino sahəsində çalışıb və bir neçə filmin rejissoru olub. 1941–1942-ci illərdə Ş. Bədəlbəyli sovet ordusunun hissələri tərkibində İrana göndərilir, 1943-cü ildə Ş. Bədəlbəyliyə Azərbaycan incəsənətinin inkişafında böyük nailiyyətlərinə görə Azərbaycan Ali Soveti Rəyasət Heyəti tərəfindən əməkdar incəsənət xadimi fəxri adı verilir. Ş. Bədəlbəyli bundan sonrakı illərdə də bir sıra hökumət mükafatlarına layiq görülmüş, fəxri fərmanlarla, orden və medallarla təltif olunmuşdur.

Şəmsi Bədəlbəyli 23 may 1987-ci ildə Bakıda vəfat edib və Fəxri Xiyabanda dəfn olunub. Onun adı Azərbaycan mədəniyyətində böyük hörmətlə anılır və yaradıcılığı bu gün də tədqiq olunur.

## ELQUCA BERDZENİŞVİLİ



***Gürcü incəsənətinin görkəmli nümayəndəsi Elquca Berdzenişvili Gürcüstanın məşhur rəssamı, qrafiki və kitab illüstratoru olmuşdur.*** Elquca Berdzenişvili Gürcü mədəniyyətinə böyük töhfələr vermiş və milli sənət irsini zənginləşdirmişdir.

Elquca Berdzenişvili 1927-ci ildə Gürcüstanda anadan olub. Erkən yaşlarından incəsənətə maraq göstərmiş və rəsm sahəsində istedadı ilə fərqlənmişdir. O, 1956-cı ildə Tbilisi Dövlət İncəsənət Akademiyasını bitirib və peşəkar sənətkar kimi fəaliyyətə başlamışdır. Elquca Berdzenişvilinin yaradıcılığı çoxşaxəlidir və müxtəlif sahələri əhatə edir. Berdzenişvili, xüsusilə kitab illüstrasiyaları ilə məşhur idi. O, müxtəlif Gürcü bədii əsərlərinin illüstrasiyalarını yaratmış və klassik ədəbiyyatı müasir qrafik üslubda təqdim etmişdir. Ən tanınmış işlərindən biri Konstantine Qamsaxurdianın "Didostatis Marjvena" (Böyük Ustanın Əli) əsərinin illüstrasiyasıdır (1972). Elquca Berdzenişvili rəssamlıqda ənənəvi Gürcü motivlərini müasir sənət tərzi ilə birləşdirmişdir. O, portret janrında da çalışıb və müxtəlif tanınmış şəxslərin təsvirlərini yaradıb. Onun məşhur portretlərindən bəziləri "Mziyanın Portreti", "Güli Çoxelinin Portreti" və "Abesalom və Eteri"dir.

Berdzenişvili həmçinin monumental sənət əsərləri də yaratmışdır. O, xüsusən də Gürcüstanın müxtəlif ictimai binalarında və kurort komplekslərində böyük divar rəsmləri çəkmişdir. Onun yaratdığı rəsmlərdən bəziləri Biqvinta kurort kompleksi (1967) və Okami şərab zavodu üçün nəzərdə tutulmuşdur.

Elquca Berdzenişvilinin sənəti yalnız estetik gözəlliyi ilə deyil, həm də Gürcü milli kimliyini və mədəniyyətini əks etdirməsi ilə əhəmiyyətlidir. Onun əsərləri Gürcü xalqının tarixi, ənənələri və həyat tərzini müasir baxışla birləşdirərək yeni nəsillərə ötürür.

1966-cı ildə Gürcüstanın əməkdar rəssamı fəxri adına layiq görülmüşdür. Müxtəlif beynəlxalq sənət sərgilərində mükafatlar qazanmış və Gürcüstanın mədəniyyətinə verdiyi töhfələrə görə yüksək qiymətləndirilmişdir.

Elquca Berdzenişvili Gürcüstanın incəsənət tarixində əbədi iz qoymuş sənətkardır. Onun yaradıcılığı milli dəyərləri müasirliklə birləşdirərək Gürcü mədəniyyətini zənginləşdirmişdir. Berdzenişvili yalnız sənət əsərləri ilə deyil, həm də öz unikal üslubu və fəlsəfəsi ilə gələcək nəsillərə ilham mənbəyi olaraq qalacaqdır.

Elquca Berdzenişvili 2019-cu il yanvarın 1-də Tbilisidə vəfat edib.

# KÜVEYT



***Kiçik ərazidə böyük sərvətə malik olan Küveyt Qərbi Asiyada, Fars körfəzinin cənub-qərb sahilində yerləşən kiçik, lakin iqtisadi cəhətdən güclü bir dövlətdir.*** Coğrafi ölçülərinə baxmayaraq, Küveyt qlobal iqtisadiyyatda mühüm yer tutur və zəngin neft ehtiyatları sayəsində Yaxın şərqin ən varlı ölkələrindən biridir.

**Coğrafi mövqe:** Küveyt Ərəbistan yarımadasının şimal-şərqində yerləşir və cəmi 17,818 kvadrat kilometr əraziyə malikdir. 2025 – cü ilin statistikasına nəzərən, əhalisinin sayı 4 985 716 nəfəri təşkil edir. Şimalda və qərbdə İraq, cənubda isə Səudiyyə Ərəbistanı ilə həmsərhəddir. Şərqdə isə Fars körfəzinə çıxışı var və bu, ölkənin strateji mövqeyini daha da gücləndirir. Küveytin mərkəzi şəhəri El- Küveyt şəhəridir. Hökumət quruluşu konstitusiyalı monarxiyadır. Dövlət dili ərəb və ingilis dilidir, dini isə islam dinidir.

**İqlim:** Küveytin iqlimi isti və quraq səhralarla xarakterizə olunur. Yay aylarında temperatur 50°C-dən yüksək ola bilər. Qışda isə hava nisbətən mülayimdir, temperatur 10-20°C arasında dəyişir. Yağıntı miqdarı olduqca azdır və əsasən qış aylarında baş verir.

**Tarixi və siyasi inkişaf:** Küveytin tarixi qədim dövrlərə gedib çıxır. Ərazisi bir zamanlar Dilmun sivilizasiyasının ticarət mərkəzi olmuşdur. Ərəb tayfalarının burada məskunlaşması və XVIII əsrdə Sabah ailəsinin hakimiyyətə gəlməsi ilə Küveytin müasir tarixi formalaşmağa başlayıb.

1899-cu ildə Böyük Britaniya ilə protektorat müqaviləsi imzalayan Küveyt, Britaniyanın himayəsi altına keçib və xarici müdaxilələrdən qorunub. 1961-ci ildə isə müstəqilliyini elan edib və Birləşmiş Millətlər Təşkilatının üzvü olub.

1990-cı ildə Küveytin siyasi tarixinə təsir edən ən mühüm hadisələrdən biri baş verib – İraq Küveytə hücum edərək onu işğal edib. Bu işğal 1991-ci ildə ABŞ başda olmaqla beynəlxalq koalisiya qüvvələrinin müdaxiləsi nəticəsində sona çatıb və Küveyt azad olunub.

**İqtisadiyyat və neft sənayesi:** Küveytin iqtisadiyyatı əsasən neft və təbii qaz ixracına əsaslanır. Dünya üzrə ən böyük neft ehtiyatlarına malik ölkələrdən biri olan Küveytin neft ehtiyatları təxminən 101,5 milyard barrel olaraq qiymətləndirilir ki, bu da dünya ehtiyatlarının təxminən 8 faizini təşkil edir.

1938-ci ildə neftin kəşf olunması ilə Küveytin iqtisadiyyatı sürətlə inkişaf etməyə başlayıb. Hazırda neft gəlirləri dövlət büdcəsinin təxminən 90 faizini təşkil edir. Küveytin milli neft şirkəti olan "Kuwait Petroleum Corporation" dünya miqyasında böyük əhəmiyyətə malikdir.

Neft sənayesindən əldə edilən gəlirlər ölkənin yüksək həyat səviyyəsini təmin edib. Küveyt sakinləri Yaxın Şərqin ən yüksək adambaşına düşən gəlirinə malikdirlər. Dövlət geniş sosial təminat və təhsil sistemini maliyyələşdirir və vətəndaşlarına yüksək həyat standartları təqdim edir.

**Mədəniyyət və cəmiyyət:** Küveyt mədəniyyəti ərəb-İslam ənənələrinə əsaslanır və ərəb dili ölkənin rəsmi dilidir. Əhalinin əksəriyyəti müsəlmandır və İslam dini gündəlik həyatda mühüm rol oynayır. Küveyt eyni zamanda müasirlik və ənənəviliyi uğurla birləşdirən bir ölkədir.

Mədəniyyət sahəsində Küveyt Körfəz bölgəsində ilk teatrların, kinoteatrların və müasir ədəbiyyatın yarandığı məkanlardan biri olmuşdur. Küveytli yazıçılar və şairlər ərəb ədəbiyyatına böyük töhfələr vermişlər. Musiqi mədəniyyəti də zəngindir və ənənəvi ərəb musiqisi ilə müasir musiqi üslublarını birləşdirir.




Küveytdə qadınların hüquqları və ictimai rolu regionun digər ölkələri ilə müqayisədə daha irəlidədir. Qadınlar 2005-ci ildən etibarən seçki hüququna malikdirlər və parlamentdə təmsil olunurlar.

**Təhsil və infrastruktur:** Küveyt yüksək inkişaf etmiş təhsil sistemi ilə seçilir. Təhsil dövlət tərəfindən pulsuz təmin edilir və məktəblərin əksəriyyəti müasir texnologiyalarla təchiz olunmuşdur. Küveyt Universiteti ölkənin aparıcı ali təhsil müəssisəsidir və burada müxtəlif ixtisaslar üzrə mütəxəssislər hazırlanır.

İnfrastruktur baxımından da Küveyt müasir şəhərlərə malikdir. Paytaxt Küveyt şəhəri müasir göydələnlər, ticarət mərkəzləri və inkişaf etmiş nəqliyyat sistemi ilə diqqət çəkir. "Küveyt Qüllələri" ölkənin ən məşhur memarlıq abidələrindən biridir və turistlər üçün cəlbedici məkanlardandır.

**Xarici münasibətlər və Beynəlxalq əlaqələr:** Küveyt beynəlxalq siyasətdə neytral və barışdırıcı mövqe tutmağa çalışır. Körfəz Əməkdaşlıq Şurasının üzvü olan ölkə regiondakı sabitliyin qorunmasına töhfə verir. ABŞ və Qərb ölkələri ilə möhkəm iqtisadi və hərbi əlaqələrə malikdir.

GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

" ს ა ქ ა რ თ ვ ე ლ ო "
" S A K A R T V E L O "

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



## İDMAN

# "BAKURİANİ 2025"
## OLİMPİYA KOMİTƏLƏRİNİN PREZİDENTİ GÜRCÜSTANDA FESTİVALIN TƏŞKİLİNİ QİYMƏTLƏNDİRİB



***Avropa Olimpiya Komitələrinin prezidenti Spiros Kapralos tədbirin bağlanış mərasimində deyib ki, Gürcüstan beynəlxalq yarışlara ev sahibliyi etmək üçün səviyyəni o qədər yüksəyə qaldırıb ki, 2027-ci ildə Avropa Gənclər Olimpiya Qış Festivalına ev sahibliyi edəcək Ruminiya üçün də turnirə analoji səviyyədə ev sahibliyi etmək çətin olacaq.***

Olimpiya Festivalı fevralın 9-dan 16-dək Bakuriani, Tbilisi və Batumidə keçirilib. Gürcüstana Avropanın 48 ölkəsindən minə yaxın idmançı gəlib. Yarışlar səkkiz növ üzrə keçirilib. *"Siz bu Olimpiada ilə səviyyəni o qədər yüksəklərə qaldırdınız ki, Ruminiya üçün də festivala ev sahibliyi etmək çətin olacaq"*- deyə Kapralos bildirib. Kapralos Olimpiya Festivalını dəyərləndirməyə minnətdarlıq ifadəsi ilə başlayıb, mötəbər turnirin uğurla keçirilməsində təşkilatçıların rolunu vurğulayıb.

*" Biz Gürcüstanda tam bir həftə, yeddi təsirli gün keçirdik və biz, nümayəndə heyətləri, belə fantastik yarışa şahidlik etdiyimiz üçün xoşbəxtik",* - deyə Kapralos bildirib.

Səkkiz idmançıdan ibarət Gürcüstan komandası festivalı fiqurlu konkisürən İnqa Qurgenidzenin qazandığı bir qızıl medalla başa vurub.

İtaliya komandası ən çox medal qazanıb – 16 (7-sı qızıl olmaqla) ədəd, Fransa beş qızıl, İsveçrə isə dörd medal qazanıb.

## MƏDƏNİYYƏT

# TÜRKİYƏDƏ ÇƏKİLƏN "ÇIRAK" SERİALININ MUSİQİSİNİ GÜRCÜSTANLI AŞIQ NARGİLƏ MEHDİYEVA İFA EDİB



***Aktyor Ozan Akbaba Gürcüstanda yaşayan azərbaycanlı aşıq Nargilə Mehdiyeva ilə bağlı təəssüratlarını bölüşüb.***

Ozan, "Çırak" serialının musiqisini Nargilə ilə birgə hazırladıqlarını deyib: "Mahnılar da orijinaldır. Gürcüstanda yaşayan tərəkəmə dostum var. Adı Nargilə Mehdiyevadır. Oradakı nadir qadın aşıqlardan biridir. Bilirsiniz ki, Aşıq sənəti Dədə Qorquddan bu günə çatıb. Hazırda bu mədəniyyət Qafqazda daha dolu-dolu yaşanır. Nargilədən xahiş etdim, o da Uşakda bir verilişə gəlmişdi. Proqramdan qayıdanda İzmirdə bacımla qardaşımın olduğu evdə, bir otaqda mahnıları lentə aldılar. Bütün serialı onun orada oxuduğu mahnılarla bəzədim. Müdhiş bir şey alındı. "Soundtrack" olaraq çox nadir işlədik. Ekran işindəki mahnılar səhnələrə uyğun hazırlandı. Tamaşaçılar tərəfindən musiqi çox bəyənildi", - deyə aktyor Ozan Akbaba bildirib. Qeyd edək ki, Aşıq Nargilə Mehdiyeva 12 yaşından aşıq sənəti ilə məşğul olmağa başlayıb. O, ilk dəfə 1995-ci ildə Azərbaycanın Tovuz şəhərində keçirilən qadın aşıqları müsabiqəsində birinci yerə layiq görülüb. Daha sonra Gürcüstanda keçirilən festivalda iştirak edib və unikal ifaçı adına layiq görülərək, 1-ci yerə çıxıb. Mehdiyeva bu günədək bir çox yerli və xarici festivallarda uğurla iştirak edib. O, bir sıra şəhər və bölgələrdə saz kursları təşkil edib və çox sayda şəyirdlər yetişdirib.

## MARAQLIDIR

# ALMANİYANIN ƏN BAHALI EVİ SATILIR

***Hollivud ulduzu Bred Pitt üçün tikildiyi iddia edilən və Almaniyanın ən bahalı daşınmaz əmlakı kimi göstərilən Schvanenverder adasındakı villa 79 milyon avroya satışa çıxarılıb.***

Yaşayış sahəsi 1490 kvadratmetr olan rezidensiyada 9 yataq otağı, 8 vanna otağı və şəxsi hovuz var. Ümumilikdə 10700 kvadratmetr torpaq sahəsində inşa edilən rezidensiyada geniş park sahəsi də mövcuddur.

Villa memarlıq quruluşu ilə gəmi göyərtəsini xatırladır. Məşhur aktyor Pitt müsahibəsində Berlinə köçmək istədiyini və Potsdamda ev tikdirdiyini bildirib

## ELAN

"Gürcüstan" qəzetində "Soruşun-cavab verək" adlı hüquq məsləhəti güşəsi fəaliyyət göstərir. Bu guşədə hüququn bütün sahələrinə (İnzibati, Mülki, Cinayət və s.) aid məsələlərlə bağlı sizi maraqlandıran istənilən suala cavab ala bilərsiniz

Guşənin aparıcısı təcrübəli hüquqşünas, Gürcüstan Vəkillər Assosiasiyasının üzvü **Robinzon Levanoviç Papidzedir**.

**Əlaqə telefonu: +995 593 97 85 15;**

**Ünvan:** Tbilisi şəhəri, Tsereteli prospekti, 142, birinci mərtəbə.

## BAŞSAĞLIĞI



"Gürcüstan"ın kollektivi qəzetin Marneuli Bələdiyyəsi üzrə müxbiri Şamil Ziyadəliyevə əzizi və Qızılhacılı kəndinin sakinləri Fazil, Faiq və Famil İsmayılov qardaşlarına və Gülşəhər Bozduyevaya anası

**Nüyvər Rəhim qızı İsmayılovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

## KEÇMİŞİN CANLI NƏFƏSİ



**Foto E.Şahvələdindir.**

## CƏRİMƏ

# QIŞ TƏKƏRLƏRİNDƏN İSTİFADƏ ETMƏYƏN 600-DƏN ÇOX SÜRÜCÜ CƏRİMƏLƏNİB

Qış təkərlərindən istifadə etməyən 654 sürücüyə cərimə tətbiq edilib. Bu barədə Daxili İşlər Nazirliyinin statistik məlumatlarında qeyd olunub. Məlumata əsasən, onlardan 319-u İmereti bölgəsində; 150-si Kvemo Kartlidə; 59-u Mtsxeta-Mtianetidə; 42 -si Samtsxe-Cavaxetidə; 37-si Kaxetidə; 5-i Şida Kartlidə, 2-si isə Tbilisinin yüksək ərazilərində cərimələniblər. Xatırladaq ki, qış təkərləri olmadan avtomobil idarə etməyə qadağa 2024-cü ildən qüvvəyə minib. Qanuna əsasən, dekabrın 1-dən martın 1-dək olan müddətdə yolların müəyyən hissəsində avtomobillərin qış təkərləri ilə idarə olunması məcburidir. Belə ki, müvafiq xüsusiyyətlərə malik qış təkərləri olmayan avtonəqliyyat vasitəsini idarə edərkən, xüsusi hallarda, meteoroloji şərait nəzərə alınmaqla - ən azı iki təkərdə sürüşməyə qarşı zəncirlər olmasa - 100 lari məbləğində cərimə edilir və sürücünün sürücülük vəsiqəsindən 5 balı silinir.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

# "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი" ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.